www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-16 oktyabr 2016-cı il Şənbə № 228 (6549) Qiyməti 60 qəpik

**Xəbər**

## Ölümə aparan qorxulu dini sektalara dair ilginc detallar

yazısı səh.15-də

**Gündəm**

### Cahangir Hacıyevə ağır cəza - 15 il həbs



Sabiq bankirin əmlakı müsadirə olundu; 110 minlik saatı, sikkəsi və qızıl lövhəsi də dövlət nəfinə keçdi; o, 70 milyon manat da pul ödəməlidir

yazısı səh.7-də

### Deputatdan Rusiya-Qərb qarşıdurmasına ilginc şərh

yazısı səh.4-də

### Manatı gücləndirən səbəblər...

yazısı səh.5-də

### Akif Çovdarov həbsxanada özünü necə öldürə bilər?

yazısı səh.7-də

### "Rabitə çetesi"nin məhkəməsi başlayır - Əli Abbasov qandallana bilər

yazısı səh.6-da

### Milli Məclis mühüm qərarlar qəbul etdi

yazısı səh.12-də

### Türkiyədən Azərbaycana FETÖ siyahısı gəlibmi?

yazısı səh.9-da

### Vasitəçilərin ikili standart siyasətini dəyişmək zamanı yetişib

yazısı səh.11-də

### Beynəlxalq Sığorta Şirkətinin bağlanmasının pərdəarxası

yazısı səh.13-də

### Hava hücumundan müdafiə qüvvələrinin döyüş hazırlığı yoxlanılır

yazısı səh.2-də

### Bakıda heyvanların parçaladığı şəxs kriminal aləmin üzvü imiş

yazısı səh.15-də

### Hündürlüyü 12 metrədək olan evlərin qeydiyyatı asanlaşdırıldı

yazısı səh.2-də

Dövlətin milyardlarını "bozbaş kimi yeyən" məmur haqda sensasion məlumatlar

# NAZİR MÜAVİNİ ARİF ƏSGƏROV "İP"DƏ - BU DƏFƏ XİLAS OLMAYA BİLƏR

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovun səsləndirdiyi ittihamlar A.Əsgərovun irimiqyaslı korrupsiyaya bulaşdığından xəbər verir; il yarım əvvəl həbs olunmaq təhlükəsindən qurtulan məmur haqda araşdırma başlandığı deyilir



yazısı səh.5-də

## "Rus NATO-su" İrəvandan NATO-nu hədələdi - ermənilər xoflandı

İşğalçı ölkənin alyansın hədəfinə gəlmə təhlükəsi düşmən ölkədə həyəcan yaratdı; rəsmi İrəvanın Qarabağ məsələsini KTMT-nin gündəliyinə salmaq cəhdi fiasko oldu

yazısı səh.8-də



*Elxan Süleymanov:*

**"Düşmənlərimizin Azərbaycana qara yaxmaq cəhdlərini AŞ PA Bürosu rədd etdi"**

yazısı səh.4-də



*Şahin Cəfərli:*

**"Rusiyanın Qarabağla bağlı Azərbaycan üçün heç də sərfəli olmayan təklifləri ortaya çıxıb"**

yazısı səh.9-da



*İlham Şaban:*

**"Vətəndaşlar son bir ildə öz boğazlarından kəsib, hökuməti saxladılar"**

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016



# “Pakistandan ən müasir silahlar almaq istəyirik”

## Prezident İlham Əliyev Pakistanın baş nazirini qəbul etdi

**Azərbaycanda səfərdə olan Pakistan İslam Respublikasının baş naziri Məhəmməd Nəvaz Şərifin oktyabrın 14-də rəsmi qarşılanma mərasimi olub. APA-nın xəbərinə görə, rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərif ilə məhdud tərkibdə görüşü olub.**

“Pakistandan ən müasir, yüksək texnologiyalı silahlar almaq istəyirik. Bu məsələdə tam anlaşmamız var” - deyə İlham Əliyev Pakistan baş naziri Məhəmməd Nəvaz Şəriflə danışıqlardan sonra mətbuata açıqlamasında bəyan edib.

Azərbaycan prezidenti bu görüşün əlaqələrin gücləndirilməsi baxımından uğurlu olacağına ümidvar olduğunu bildirib: “Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bu gün həyata keçirilmiş işlərə bir daha nəzər salmaq və gələcəklə bağlı planlar qurmaq üçün yaxşı fürsətdir. Sizi qəbul etməkdən çox məmnunam. Ümidvaram ki, ölkəmizə səfəriniz səmərəli keçəcək”.

**O qeyd edib ki, Pakistan baş naziri ilə müzakirələrin əhəmiyyətli hissəsi hərbi sahədə əməkdaşlığa həsr olunub:** “Bizim çox yaxşı əməkdaşlığımız var və bu gün biz ölkələrimizin silahlı qüvvələri arasında birgə hərbi təlimlə bağlı planları müzakirə etdik. Eyni zamanda, Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi var və biz bu sahədə əməkdaşlığı çox ətraflı müzakirə etdik. Azərbaycan da demək olar 10 ildir ki, öz müdafiə sənayesini inkişaf etdirir. Beləliklə, biz birgə istehsalatı qurmaq üçün müştərək şəkildə işləyə bilərik”.

**Prezident İlham Əliyev ticarət, sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması, qarşılıqlı ticarət dövriyyəsinin artırılması sahəsində müzakirələrin aparıldığını, ölkələrimiz arasında əczaçılıq, müdafiə sənayesi, kənd təsərrüfatı, turizm, nəqliyyat sahələrində əlaqələrin inkişaf etdirilməsinin vacib olduğunu qeyd edib:** “Azərbaycanda əczaçılıq sənaye sahəsini inkişaf etdirmək istəyirik, çünki əsasən idxaldan asılıyıq”.

**Pakistanın baş naziri isə bunları deyib:** “Pakistan Azərbaycan üçün ən yaxın dost və müttəfiq dövlətdir. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. İki ölkə arasında dostluq və qardaşlıq münasibətləri qurulub”.

# Media rəhbərləri Naxçıvana səfər edib

**Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə oktyabrın 14-də KİV rəhbərlərinin Naxçıvan Muxtar Respublikasına səfəri baş tutub.**

APA-nın məlumatına görə, iki günlük səfər çərçivəsində Bakıdan gedən 20 nəfərlik nümayəndə heyətinin Naxçıvan Mətbuat Şurası və digər media orqanları ilə görüşü, birgə tədbirin keçirilməsi, Naxçıvandakı mədəni-tarixi abidələrin ziyarəti nəzərdə tutulub.

Nümayəndə heyəti Naxçıvanda medianın vəziyyəti ilə maraqlanacaq, iş prinsipi ilə tanış olacaq.






Nümayəndə Heyətinin tərkibinə “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, KİVDF-nin icraçı direktoru Vüqar Səfərov, Mətbuat Şurasının üzvü, millət vəkili Aqil Abbas, “APA Holdinq”in prezidenti Vüsalə Mahirqızı, «Trend» informasiya agentliyinin baş redaktoru Arzu Nağıyev, “Xalq” qəzetinin baş redaktoru Həsən Həsənov, “Bakı-xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, “Olaylar” İnformasiya Agentliyinin baş redaktoru Yunus Oğuz, “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, “Oxu məni” qəzetinin baş redaktoru Emil Axundov, “Mövqe” qəzetinin baş redaktoru Rasim Bayramov, “Respublika” qəzetinin baş redaktor müavini Hümbət Musayev, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, KİVDF-nin əməkdaşı Samir Mustafayev, “Mövqe” qəzetinin əməkdaşı Zülfiyə Quliyeva daxildir.

Musavat.com-un xəbərinə görə, nümayəndə heyəti eks-prezident Heydər Əliyev adına muzeydə eksponatları izləyərəkən maraqlı bir detal görüblər.

Qorunan eksponatlar arasında kiçik ölçülü Qurani-Kərim kitabı da olub. Bələdçi bildirib ki, prezident Heydər Əliyev bu kiçik kitabı həmişə cibində gəzdirirmiş. Naxçıvandan Bakıya gedərkən də pencəyinin cibində bu minatür Quran olub.



# Ədəbiyyat üzrə Nobel mükafatı niyə rokçuya verildi?

## Etibar Əliyev: “Bir müddətdən sonra məlum olacaq ki, Bob Dilanın poeziyası...”

**2016-cı ilin ədəbiyyat üzrə Nobel mükafatı Amerikalı mahnı müəllifi, yazarı-bəstəkarı Bob Dilana verildi. Mükafat ona “Amerikanın möhtəşəm mahnı ənənələri əsasında yeni poetik özünüifadə forması yaratdığına görə” verilib.**

Bob Dilan (Robert Allen Tsimmerman) 1941-ci ildə yəhudi ailəsində doğulub. Əsli Rusiyadandır. 1905-ci ildə - yəhudi talanlarından sonra ata babası və nənəsi Odessadan (o zaman Rusiya imperiyasına aid idi) ABŞ-a köçüblər. Bob Dilan rok musiqisində böyük nüfuz sahibi sayılır. Onun siyasi məzmunlu “Blowin in the Wind” və “The Times They Are a-Changin” kimi mahnıları ABŞ-da mülki hüquqlar uğrunda hərəkatın himninə çevrilib. Ədəbiyyat üzrə Nobel mükafatının bir rokçuya verilməsini düzgün addım hesab etməyənlər də var.

**Nobel mükafatçılarının tədqiqatçısı, fəlsəfə doktoru Etibar Əliyev:** “Son nobelçilərin seçimində də təcrübə göstərdi ki, biz obyektiv, ya da subyektiv səbəblərdən laureatların çoxunu tanımırıq. Son dövrlərin larueatlarına baxsaq, məsələn, Çin yazıçısı Mo Yanı tanımırdıq. Heç onun rus dilində də əsərləri çap olunmamışdı. Patrick Modiano yaxından tanımırdıq. Bundan başqa, Kanada yazıçısı Alice Monronu və digərlərini bizim ədəbiyyatçılar belə tanımırdı. Ona görə ki, onların əsərləri dilimizdə çap olunmamışdı. Sonradan onların əsərləri ilə tanış olduqdan sonra o larueratların həqiqətən Nobel mükafatına layiq olduğu qərarına gəldik. Hətta biz Tomas Transtromer kimi böyük şairi tanımırdıq. Çünki şeirləri dilimizə tərcümə olunmamışdı. Ola bilsin ki, biz yaxın gələcəkdə Bob Dilanın yaradıcılığı ilə tanış olaq. Bundan sonra biz onu müzakirə edə bilərik. Nobel mükafatlarının verilməsi çox mürəkkəb bir prosedurdur. Xüsusilə ədəbiyyat sahəsində mükafatı İsveç Kral Akademiyasında verilir. Hər halda, onun namizədliyinin keçməsinə səs verən ekspertlərin rəyinə hörmətlə yanaşmaq lazımdır. Hesab edirəm ki, bir müddətdən sonra məlum olacaq ki, Bob Dilan çox maraqlı adamdır və onun poeziyası kifayət qədər Nobelin vəsiyyət etdiyi ideal yönümə uyğun gəlir. Yəni onlar oradan kənara çıxa bilmir. Yalnız idealyönümlü əsərlərə, poeziyalara, əsərlərə, təhkiyəyə və romanlara verirlər”.

❑ **Günel MANAFLI**

# Həbsdəki sabiq nazirin rütbələri əlindən alındı, qardaşı həbs olundu

**Prezident İlham Əliyev Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovun ali hərbi rütbədən və dövlət təltiflərindən məhrum edilməsi haqda sərəncam imzalayıb. Sərəncamda Vəli Məmiş oğlu Ələsgərovun ağır cinayətlər törətdiyinə görə məhkum edilməsi barədə məhkəmə hökmünün qanuni qüvvəyə minməsinin və Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin təqdimatının əsas götürüldüyü qeyd olunur. Verilmiş sərəncamla V.Ələsgərov general-leytenant ali hərbi rütbəsindən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenindən, “Hərbi xidmətlərə görə” və “Vətən uğrunda” medallarından məhrum edilib.**

Qeyd edək ki, V.Ələsgərov general-leytenant ali hərbi rütbəsi ilə 27 mart 2015-ci ildə təltif olunmuşdu.

V.Ələsgərovun ali hərbi rütbələrdən məhrum edilməsi ilə yanaşı, Naxçıvanda onun qardaşı Əli Ələsgərov həbs edilib. Naxçıvan Şəhər Məhkəməsinin qərarı ilə Ə.Ələsgərov 3 ay müddətinə azadlıqdan məhrum edilib. Əli Ələsgərov külli miqdarda vergidən yayınmaqda ittiham olunur. Qeyd edək ki, Naxçıvan Hərbi Məhkəməsinin hökmü ilə Vəli Ələsgərov 14 il müddətinə azadlıqdan məhrum edilib. O, ötən il “MTN işi” zamanı həbs olunub.

“Qaya Mətbuat Yayımı” MMC!

- **İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



# Hava hücumundan müdafiə qüvvələrinin döyüş hazırlığı yoxlanılır

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən hava hücumundan müdafiə hərbi hissələrində döyüşə hazırolma səviyyəsi yoxlanılır və tapşırıqların dəqiqləşdirilməsi həyata keçirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, intensiv təlim-məşqlərdə hava hücumundan müdafiə birləşmələri və hərbi hissələri, o cümlədən müasir S-300 PMU zenit raket komplekslərinin heyətləri şərti düşmənin hava hədəflərini aşkar etmək, tanımaq, avtomatik izləməyə götürmək və şərti atəşlə məhv etmək kimi praktiki məşqləri icra edirlər.

# Dolların oktyabrın 17-nə olan məzənnəsi - 1,5969 manat



**Azərbaycan Mərkəzi Bankı (AMB) oktyabrın 17-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,5969 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, oktyabrın 14-də dolların məzənnəsi 1,5970 manat olub.**

# Hündürlüyü 12 metrədək olan evlərin qeydiyyatı asanlaşdırıldı

**Milli Məclisin plenar iclasında “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, layihə barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib.

Qanun layihəsinə təklif edilən dəyişikliklərə əsasən, icarədə və ya istifadədə olan torpaq sahəsində yerləşən, hündürlüyü 12 metrədək olan yaşayış evləri torpaq sahəsi üzərində icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə və yaşayış evinin istismara qəbul aktı olduğu təqdirdə daşınmaz əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınacaq.

Qanuna təklif edilən digər mühüm dəyişikliyə əsasən, 2013-cü il yanvarın 1-dək inşa edilmiş tikililərdə məqsədli təyinatına görə yaşayış evinin tikintisi üçün nəzərdə tutulmuş xüsusi mülkiyyətdə olan torpaq sahəsində yerləşən hündürlüyü 12 metrədək olan yaşayış evlərinin qeydiyyatı üçün yalnız torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd tələb olunacaq.

Sadə dillə desək, 2013-cü ilin yanvarın 1-dək hündürlüyü 12 metrədək olan fərdi yaşayış evi inşa edənlər yalnız torpaq üzərində mülkiyyət hüququnu təsdiq edən sənədi təqdim etməklə daşınmaz əmlak üzərində mülkiyyət hüququna yiyələnəcək. Layihə səsverməyə çıxarılaraq qəbul edilib.

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

**Azərbaycan Konstitusiyasına edilən əlavə və dəyişikliklərdən 20 gün otur. Artıq səsvermənin yekun nəticələri elan edilib, prezident referendum aktını təsdiqləyib. Faktiki olaraq yeni konstitusiya dəyişiklələti qüvvəyə minib.**

# İslahatlar niyə yubanır - ekspertdən mühüm açıqlamalar

## Mehman Əliyev: "Parlamentə yeni qüvvələrin gətirilməsi yeni dövr üçün əhəmiyyətli olacaq"



Referendumdan dərhal sonra Azərbaycan hökumətinin ölkədə bütün sahələrdə islahatlar həyata keçirəcəyi deyilirdi.

Amma referendumdan 20 gün keçməsinə baxmayaraq, hakimiyyət diqqətçəkən addımlar atmayıb. Mövcud vəziyyətin nə qədər davam edəcəyi isə müəmmalıdır.

Əksəriyyət hakimiyyətin daha çox iqtisadi sahələrdə islahatlar aparacağını güman edir. Səbəb də hazırda Azərbaycanda tüğyan edən iqtisadi böhrandır.

Siyasi sahələrdə də islahatlar istisna edilmir. Qərblə münasibətləri mövcud səviyyədə saxlamaq üçün hökumətin bu sahədə islahatlar aparmasının vacibliyi qeyd olunur. Qarşıdakı aylarda ölkəmizdə gözlənilən növbədənkənar prezident və parlament seçkilərinin siyasi islahatlar istiqamətində hakimiyyətin atacağı addımlardan biri olduğu bildirilir. İstənilən halda hakimiyyətin islahatlara getməyə məcbur olduğu söylənilir.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, iqtisadi və siyasi sahələrdə vəziyyətin günbəgün pisləşməsinə baxmayaraq, islahatlar yubanır:** "İslahatlarla bağlı prezident çıxışında hansı sahələrdə islahatların aparılacağı ilə bağlı danışıb. Müəyyən sahələri inkişaf etdirmək istəyirlər. Amma necə? Aqrar sahəni inkişaf etdirmək istəyirlər. Burada kiçik və orta sahibkarlığın inkişafından söhbət getmir. Kənd təsərrüfatı, eləcə də kəndlilərə məxsus torpaqlar iri məmurlar tərəfindən zəbt edilsə də, hökumət bu torpaqları onların əllərindən almaq əvəzinə, bu sistemi saxlamaqla islahatlar aparmaq istəyir. Burada ciddi ziddiyyətlər var. Bir dəqiq məsələ var ki, hakimiyyət dəyişikliklərə getməyə məcburdur və problemin həlli yollarını axtarır. Mövcud hakimiyyəti bu idarəetmə üzərində saxlamağa çalışırlar. Bu da çox ciddi ziddiyyət təşkil edir. Vətəndaş cəmiyyətinin bu proseslərə qoşulmasının qarşısı alınır. Bu vəziyyət hər kəsi narahat edir. İslahatları bəlkə ona görə yubadırlar ki, ümid edirlər neftin qiyməti qalxar. Siyasi, iqtisadi, aqrar, sənaye və digər sahələrdə islahatlar gözlənilənidir. Amma bu da faktdır ki, sahibkarlığın müstəqil şəkildə fəaliyyətindən çəkinirlər. Halbuki demokratik ölkələrdə azad sahibkarlıq dövlətin əsasını təşkil edir. Azərbaycanda isə bunu etmək istəmirlər. Açığı, hakimiyyət ciddi islahatlara getməkdə də maraqlı görünmür. Çünki islahatlar o deməkdir ki, orada cəmiyyətlə hesablaşmaq lazımdır. Hansısa formada vəziyyəti müəyyən qədər dəyişmək istəyirlər. Ziddiyyət isə odur ki, birini etməsən, digəri də alınmır. Vəziyyət heç də ürəkaçan deyil. Bunların sonu böyük fəsadlarla nəticələnə bilər".

**M.Əliyev islahatlar olmazsa, Qərbdən gələcək təpkiləri də istisna etmədi:** "Qərbdən təzyiqlər qaçılmaz olacaq. Çünki referendumdan öncə vədlər verilib. Bunun üçün davamlı hərəkət olmalıdır. Bunlar baş verməsə, başqa mexanizmlər baş verə bilər. Böhran göstərdi ki, neft və qaza bağlıyıq. Biz gördük ki, ölkə lütdür, neftdən başqa heç nəyi yoxdur. Hər şey də bu gün hakimiyyətin davranışından asılıdır. İctimai nəzarət olmasa, ictimaiyyətin bu proseslərdə aktivliyi təmin olunmasa, heç nə alınmayacaq. Məhkəmə sistemi də müstəqil olmalıdır. Amma bu da hakimiyyətə sərf eləmir. Odur ki bir yol müəyyən etmək çətindir".

**Ekspert prezident və parlament seçkilərinin olacağı ilə bağlı fikirlərə də münasibət bildirdi:** "Mən hələ ki parlament seçkilərini gözləmirəm. Olacaqsa, prezident seçkiləri olacaq. Bu, prezidentə daha böyük səlahiyyətlər verəcək, digər tərəfdən də üzərinə daha böyük məsuliyyət qoyur. Bu seçki islahatlar proqramına aid ediləcək. Çünki islahatların aparılmasının operativliyi artır. Daha çevik qərarlar verilməli, işlər görülməlidir. Müəyyən işlər görüləndən sonra parlament seçkiləri və digər məsələlərdən danışmaq olar. Parlamentə yeni qüvvələrin dəvəti yeni dövr üçün əhəmiyyətli olacaq. İctimaiyyət arasında müzakirələr parlamentə gətiriləcək".

❑ **Cavanşir ABBASLI**

# Gürcüstanda soydaşlarımız "seçki terroru"na məruz qalır

## Rəsmi Bakı baş verənlərə biganədir; ekspertlər seçkilərdən sonra Borçalıdakı azərbaycanlılara qarşı təzyiqləri bir sıra amillərlə izah edirlər

**Gürcüstanda oktyabrın 8-də keçirilən parlament seçkilərindən sonra soydaşlarımıza qarşı edilən təzyiqlər, 8 nəfərin həbsi Azərbaycanda ciddi narahatlıqla qarşılanıb.**

"BBC"nin məlumatına görə Vahid Milli Hərəkat Partiyasının namizədi Əhməd İmamquliyevin həbs edilən tərəfdarları seçki günü Marneulinin Qızılhacılı kəndində 48 saylı seçki məntəqəsində baş vermiş insidentdə təqsirli bilinirlər.

**Ə.İmamquliyev** jurnalistlərə açıqlamasında vəziyyətə nəzarət olunduğunu və sonadək saxlanılan şəxsləri müdafiə edəcəklərini bildirib: "Xüsusi təyinatlılar sanki terrorçuları həbs edirdilər. Gənclər seçkilərdə iştirak edənlərdən biridir, təsadüfən qarşıdurma yaranan zaman seçki məntəqəsinin ərazisində olublar. Oktyabrın 8-də 48 nömrəli seçki məntəqəsi yerləşən Qızılhacılı kənd sakinlərinin hamısı baş verənlərlə bağlı istintaqa açıqlama verməyə hazır idilər. Lakin onları dinləyən olmadı".

Ekspertlər azərbaycanlılara qarşı seçkilərdən sonra edilən təzyiqləri müxtəlif cür izah edirlər. Əsas ehtimal həbs edilən gənclərin olduğu Marneulidə müxalifətin reytinqinin güclü olması və seçki günü bu ərazidən Saakaşvilinin partiyasının daha çox səs yığması ilə bağlıdır. Proseslər davam edərsə, Azərbaycan-Gürcüstan münasibətlərində gərginliyin baş verə biləcəyi də istisna olunmur. Azərbaycan Xarici İşlər Nazirliyinin tezliklə baş vermiş hadisəyə münasibət bildirməsinin vacibliyi qeyd olunur.




**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirdi ki, Gürcüstanda artıq azərbaycanlılar siyasi iradə ortaya qoyur, siyasətlə ciddi şəkildə məşğul olur və bunun üçün də yüksək mübarizə nümayiş etdirirlər:** "İvanişvilinin vaxtında müxalifətdə olmaq asan deyil. Amma azərbaycanlılar müxalifətdə olurlar, təzyiqlərdən çəkinmirlər və sonda da seçkini udurlar. 26 yaşlı gənc Samirə İsmayılovanın Borçalıda 9 min səs yığması elə-belə iş deyil. Ayın 8-də Qızılhacılı kəndində saxtakarlıq etmək istədilər və camaat bunun qarşısını aldı. Müəyyən gərginliklər yaşandı. İndi vəziyyət sakitləşib və Əhməd İmamquliyev yüksək səslə ikinci tura keçib. Bir aydan sonrakı seçkilərdə onun nüfuzuna xələl gətirmək üçün bu cür üsullara əl atıblar. Onun tərəfdarlarını qarşıdurma yaradan tərəflər kimi qələmə verməyə cəhdlər olur. Sevindirici hal odur ki, bizim orada elektoratımız var, ciddi müqavimət göstərir. Bu bir yenilikdir. Prosesi izləyirik. Formalaşan gənclik belə primitiv üsulların həyata keçməsinə imkan verməyəcək. Hər bir soydaşımızın yanındayıq. İndiki gürcü hakimiyyəti Azərbaycan türkünün varlığını qəbul etməkdə zorlanır. Bu da qorxu mənbəyidir. Bunun üçün də təhlükəsizlik sistemimiz bunun fərqində olmalıdır".

**Deputat Fərəc Quliyev Gürcüstandakı soydaşlarımızın hüquqlarının təmin olunmasına çalışdıqlarını qeyd etdi:** "Gürcüstanda sayına görə azərbaycanlılar parlamentdə az təmsil olunurlar. Burada seçki saxtakarlığı da mühüm rol oynayır. Amma ermənilərin sayı azdır, gürcü parlamentində təmsilçiləri var. Soydaşlarımıza qarşı müəyyən təzyiqlər olur. Bunu bütün gürcü hakimiyyətinin ayağına yazmaq olmaz. Gürcüstan Azərbaycandan qidalanır və bizimlə yaxın əlaqələri olan dövlətdir. Rusiya-Gürcüstan müharibəsində ermənilər açıq şəkildə rusların tərəfində olsalar da, oradakı soydaşlarımız Gürcüstan hakimiyyətinin yanında oldular. Bunlar çox ciddi amillərdir. Azərbaycanın müvafiq strukturları, xüsusilə Xarici İşlər Nazirliyi bu məsələ ilə məşğul olmalı və keçmişdə baş verənləri onların yadına salmalıdır. Susqunluğumuz oradakı soydaşlarımızın tək qalmalarına səbəb ola bilər".

**Əslən Borçalıdan olan politoloq Şahin Cəfərli baş verənlərlə bağlı bunları dedi:** "Səsvermə günü Marneuli rayonunun Qızılhacılı kəndində saxtakarlıq cəhdlərinə etirazlarını bildirmiş bəzi azərbaycanlıların polis tərəfindən saxlanılmasını siyasi baxımdan yanlış, hüquqi cəhətdən isə qeyri-qanuni addım sayıram. Həmin insanlar məhz qanunsuzluğa etirazlarını bildiriblər. Ola bilsin ki, emosiyaların təsiri altında kimlərsə hüquqazidd əməllərə yol verib. Həmin adamları cərimə və ya qısamüddətli həbs qərarı ilə inzibati qaydada cəzalandırmaq olardı. Lakin bunun əvəzində gecə yarısı xüsusi təyinatlıları göndərib, o şəxsləri evlərindən çıxararaq Rustavi şəhərindəki təcridxanaya aparıblar. Mən bu hadisədə etnik mahiyyət axtarmaq istəməzdim və bu addımın azərbaycanlı əhaliyə qarşı yönəldiyinə inanmıram. Sadəcə olaraq, hakimiyyət ölkədə yeganə ciddi müxalif qüvvə kimi qalmış Vahid Milli Hərəkatı sıxışdırmaq və onun tərəfdarlarını qorxutmaq istəyir. Bunu həm də 2-ci tur ərəfəsində "profilaktik" tədbir kimi qiymətləndirmək olar. Qızılhacılıdakı hadisə beynəlxalq miqyasda əks-səda doğurdu və transmilli mediada işıqlandırıldı. Nəticədə olay beynəlxalq müşahidəçilərin rəyində əksini taparaq seçkiyə müəyyən qədər kölgə salan amil oldu. "Gürcü Arzusu" 2-ci tur zamanı bu tip olayların təkrarlanmasını istəmir. Həbslərdə etnik faktor rol oynamasa da, hesab edirəm ki, hakimiyyət orqanları daha ehtiyatlı davrana bilərdilər. Onların istifadə etdiyi metod yerli əhalidə narazılıq və dövlətə etimadsızlıq yaradıb. Bu, Gürcüstan dövlətinə lazım deyil. Lakin hadisə Gürcüstan-Azərbaycan dövlətlərarası münasibətlərinə təsir göstərə biləcək səviyyədə deyil və qonşu ölkənin daxili işidir. Azərbaycanlılara qarşı sistematik təzyiqlər olarsa, rəsmi Bakı yalnız o zaman münasibət bildirə bilər və bildirməlidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016



# MDB kimi BMT... kimə lazım?

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**BMT-yə yeni baş katib seçilib. Bu, Portuqaliyanın keçmiş baş naziri, təşkilatın qaçqınlar üzrə sabiq ali komissarı Antoniu Qutterişdi. Gələn il yanvarın 1-dən o, fəaliyyətə başlayacaq və 2021-ci ilin sonunadək, 5 il bu postda qalacaq. Etimad göstərilsə, daha 5 il baş katib işləyəcək.**

Pan Ge Munun yerinə Qutteriş. Ancaq görəsən, bu nəyisə dəyişəcəkmi? Yəqin ki, prinsipial heç nəyi, əgər BMT indiki qiyafəsində qalmaqda davam edəcəksə. Necə ki, MDB-nin baş katibi heç nəyi həll eləmir (onun hətta ad-soyadını bilən yoxdur), eləcə də Qutteriş qarşıdakı 5 ili öz kabinetində obrazlı desək, milçək öldürməklə keçirəcək - sələfi kimi.

Məsələ də ondadır ki, bu gün BMT-nin baş katibini yox, onun fəaliyyət mexanizmini dəyişməyə, strukturunda köklü islahatlara aparmağa ehtiyac var. Çünki bu qurum xüsusən də son illər az qala, formal bir təşkilata çevrilib. Ələlxüsus da BMT-nin ən mühüm orqanı olan BMT Təhlükəsizlik Şurasının (TŞ) işini müasir dünyanın, qlobal təhlükəsizlik sisteminin tələbləri əsasında qurmağa böyük zərurət yaranıb.

Yüz minlərlə günahsız insanın ölümünə gətirən Suriya böhranının həlli üçün 4 ildir BMT TŞ-nin heç bir ciddi iş görə bilməməsi və adicə qətnamələrin qəbuluna gücü çatmaması buna bariz sübutdur. Səbəb əlbəttə ki, TŞ-nin daimi üzvü olan 5 dövlətin - ABŞ, Rusiya, Böyük Britaniya, Çin və Fransanın çox vaxt bəşəri deyil, sırf öz dövləti maraqlarından çıxış etməsi, özlərinin veto hüququndan yararlanaraq qlobal sülh üçün vacib olan sənədlərin qəbulunu əngəlləməsidir.

Yaxud hansısa qətnamə qəbul olunsa belə, yenə məhz həmin dövlətlərin toqquşan maraqları üzündən çox vaxt yerinə yetirilməmiş qalır. Dağlıq Qarabağa dair BMT TŞ-nin ayrı-ayrı vaxtlarda qəbul elədiyi 4 qətnamənin (822, 853, 874, 884) aqibəti görkdür.

Təsadüfi deyil ki, son 10 ildə biz baş katib olaraq, Pan Ge Munun dilindən BMT-nin Qarabağa dair qətnamələri haqda bir kəlmə də eşitmədik. Bəli, cənab Pan Ge Mun bu müddətdə ara-sıra münaqişələrdən danışdı, amma qətnamələr "yadına düşmədi".

Sual ortaya çıxır: bir təşkilat öz ali qərarlarının yerinə yetirilməsini təmin edə bilmirsə, onu mötəbər saymaq mümkünmü? Şəksiz, BMT Nizamnaməsini dəyişməyə ehtiyac yoxdur. Hansı Nizamnamə ki, BMT TŞ-nin məlum qətnamələri kimi, Azərbaycana öz ərazilərini işğaldan silah gücünə təmizləmək hüququ tanıyır. Gəl ki, yenə də məhz böyük dövlətlərin maraq və ambisiyaları həmin Nizamnamənin reallaşması önündə əsas tormozlayıcı faktor olaraq qalır.

Yaxud BMT-nin hərbi məhkəməsi - Beynəlxalq Məhkəmə və ya Haaqa Tribunalı. Tribunal indiyədək bir sıra hərbi cinayətkarlarla bağlı ədalətli qərar çıxarıb. Son olaraq Bosniyada Serebrenitsadakı soyqırıma görə serb hərbi canilərinə layiqli cəza kəsib. Ancaq Xocalıda da soyqırım törədilib. Amma Xocalı hərbi caniləri indiyədək azadlıqda gəzir, onların bəziləri hətta Ermənistanda yüksək dövlət vəzifələri tutur - halbuki, video-foto faktlar, dəlillər az qala bütün dünyanı dolaşıb.

Səbəb nədir, böyük dövlətlərin İkili standartı, toqquşan maraqları, yaxud BMT-nin gücsüzlüyü? Həm bu, həm də digər səbəblər. Odur ki, BMT, ilk növbədə də onun TŞ-si elə bir işlək mexanizmə sahib olmalıdır ki, belə hallar istisna olsun, bəşəriyyət əleyhinə cinayət törədənlər milliyyətindən, dinindən asılı olmayaraq layiqli cəzalarını alsınlar. Özü də vaxtında!!

Bundan ötrü isə BMT-də güclü islahatlara gərək var. Bununla bağlı xüsusən də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bir neçə dəfə olduqca konstruktiv təkliflərlə çıxış edib. Dünyanın taleyini cəmi 5 dövlətin həll etməsini, BMT TŞ-nin veto hüququna malik daimi üzvləri arasında bircə müsəlman dövlətinin olmamasını böyük ədalətsizlik adlandırıb, TŞ-də veto hüququnun ləğvini təklif edib. Analoji təkliflə Almaniya, Yaponiya da çıxış edib.

Fəqət, belə görünür, həmin 5 böyük dövlət öz isti yerlərini soyuq eləməyə hazırlaşmır. Deməli, BMT baş katibləri dəyişsə də, onun işi yenə də effektsiz, dişsiz olacaq, dünyada münaqişələr, müharibələr bitməyəcək. Necə ki, bitmir. Hələ artır da...

Qərarları kağız üzərində qalan MDB kimi BMT kimə lazımdır ki?

# "Referendumla bağlı memorandum AŞ PA-da heç bir düzəliş olmadan təsdiqləndi"

## Elxan Süleymanov: "Düşmənlərimizin Azərbaycana qara yaxmaq cəhdlərini AŞ PA Bürosu rədd etdi"

**Millət vəkili, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Elxan Süleymanov AŞ PA-nın sessiyasında müzakirə olunan, Azərbaycanla bağlı məsələlərə dair müsavat.com-un suallarını cavablandırıb. Onunla müsahibəni təqdim edirik.**

**- Elxan müəllim, bazar ertəsi günü açıqlama yayaraq bildirdiniz ki, AŞ PA-nın iclasında Azərbaycanda keçirilmiş 26 sentyabr referendumuna dair memorandum 10 oktyabrda artıq AŞ PA Bürosu tərəfindən qəbul edilib. Bu məsələnin cümə günü, yəni 14 oktyabrda yenidən büroda müzakirə edildiyi doğrudurmu?**

- Memorandum konkret olaraq bazar ertəsi, 10 oktyabr iclasının gündəliyinə salınmışdı. Bunun belə olduğuna AŞ PA-nın internet səhifəsindən asanlıqla baxmaq olar. Mətn çap variantında büro üzvlərinin sənədlərinə əlavə edilmişdi ki, üzvlər qeyd götürə bilsin. Gündəlikdə həqiqətən də qeyd edilmişdi ki, büro bu memorandumu yalnız "nəzərə alacaq". Memorandum büro üzvlərinə paylandı, beləliklə, sənəd üzvlərin gözü önündə idi və onlar sənədi "nəzərə ala" bildilər. "Nəzərə almaq" proseduru sonradan başqa bir prosedur, müzakirə, yaxud səsverməni tələb etmir.

**- Cümə günü büroda yenidən müzakirə aparıldımı?**

- Ölkəmizə münasibətdə xeyli obyektiv və ədalətli mövqe sərgiləyənlər olsa da, təəssüf ki, düşmənlər də mövcuddur. Son günlər bəzi büro üzvləri memoranduma dair şəxsi qeydlər etmək və beləliklə, ölkəmizə hücum etmək imkanı qazanmaq üçün təkid edirdi. Gözlənildiyi kimi, bu opponentlər bir daha katibliyin dəstəyini əldə etdi. Belə ki, katiblik məsələni yenidən oktyabrın 14-də büronun gündəliyinə daxil etdi. Başqa sözlə, büro eyni memorandumu ikinci dəfə 4 gün sonra "nəzərə alır"... Şübhəsiz, bu, olduqca zəif siyasi təcrübədir, lakin digər tərəfdən, bu lüzumsuz təşəbbüs bizə təsir etməməlidir. Bu, dəyişilməz qalan memorandumun statusu və formulyasiyasında faktiki olaraq heç nəyi dəyişmir. Memorandum Azərbaycanda 26 sentyabr referendum islahatlarına dair AŞ PA-nın mövqeyini əks etdirən yeganə rəsmi AŞ PA sənədidir. 14 oktyabr büro iclasında Azərbaycanın qatı düşməni olan Savitskinin intiqam hissi ilə bu məsələnin təkrarən gündəliyə salınmasının bir məqsədi olub: Azərbaycana hücum edənlərin sayını artırmaq. Çox təəssüf ki, bu məsələdə azərbaycanlı adını daşımağa layiq olmayan bəzi adamların dəstək verməsi ehtimal olunur. Savitski və bütün düşmənlərin 5 gün ərzində Azərbaycana ləkə yaxmaq cəhdləri Büro tərəfindən rədd edildi. Büro qərar verdi: Azərbaycanda keçirilən referendumla bağlı memorandum haqqında qeyd büronun bazar ertəsi 10 oktyabr tarixli iclasında aparılıb. Memorandumun AŞ PA bürosunda maneəsiz və heç bir düzəliş olmadan təsdiqlənməsi nəinki xarici düşmənlərimizi, hətta daxildə ölkəmizi sevməyənləri də məyus etdi. Onların bu sənədi şübhə altına aldırmaq cəhdləri tamamilə puç oldu.



**- Yəni bununla məsələ bağlanıb və nəticə müsbətdir?**

- Məsələ tamamilə bağlanıb və nəticə tamamilə müsbətdir.

❑ Elşad MƏMMƏDLİ

# Deputatdan Rusiya-Qərb qarşıdurmasına ilginc şərh

## Zahid Oruc: "Qərb dünyadakı avantürist bir siyasəti hədəf etməsilə gəlib belə bir reallığa dirənib"



**ABŞ və Rusiya arasında gərginlik pik həddə çatıb. Hətta Putin nüvə təyyarələrini Amerika sərhədlərinə göndərib. Bu gərginlik 3-cü Dünya müharibəsi ilə nəticələnə bilərmi, yoxsa Ağ Ev Rusiyanı "məxməri yolla" parçalamağa üstünlük verəcək?**

"Dünyada təhlükəsizlik şəraitinin kəskin pisləşdiyini və Karib böhranından da təhlükəli fazaya daxil olduğunu deyənlər səhv etmirlər. Çünki Suriya münaqişəsi olmasaydı belə, Rusiya və Amerika arasındakı hegemonluq uğrunda mübarizə nüvə qarşıdurmasına doğru inkişaf edəcəkdi".

**Deputat Zahid Oruc bu fikirləri Rusiya və Qərb arasında yaranmış təhlükəli durumu "Yeni Müsavat"a şərh edərkən bildirdi. Son zamanlar hətta nüvə təhdidlərinin səslənməsi, "soyuq müharibə" illərində müşahidə olan hadisələrin yenidən yaşanması ilə əlaqədar danışarkən Z.Oruc əvvəlcə hadisələrin qısa xronikasına baxmağı zəruri saydı:** "Qorbaçov SSRİ adlı imperiyanın süqutuna razılıq verəndə Qərb Rusiyanın gələcək varlığını təhdid etməyəciyi öhdəliyini götürmüşdü. Lakin soyuq müharibənin qalibi olmaq sindromu NATO-nun sürətlə genişlənməsinə, daha çox əraziləri əhatə etmək iştahasına səbəb olur. Əslində Yaxın Şərq və Ukrayna ənənəvi olaraq sovetlər birliyinin təsir dairəsi hesab olunurdu. Sonra İslam xilafəti qurmaq planını bir kənara qoysaq, Vaşinqton və Moskvanın dünyaya əzələ nümayiş etdirmək istəməsi 80-ci illərdə Əfqanıstandakı müharibələrin buraya daşınması demək olacaqdı. Ona görə də Rusiya Suriyaya hava hücumundan müdafiə sistemlərini göndərəndə Əsədi edamdan qorumaqdan daha çox öz təhlükəsizliyinin qayğısına qaldığını gizlətmirdi. Axı reallıqda NATO Polşa və Çexiyada guya İranın ballistik raketlərini tutmaq üçün gətirib orada böyük hərbi bazalar qurub; Baltikyanı ölkələrdə 4000-dən artıq Atlantik əsgərini yerləşdirib, Qara dənizdə hərbi donanmasını genişmiqyaslı əməliyyatlarını keçirib, Gürcüstana Amerika tankını gətirib və sair".

**Z.Oruc Kremlin əzələ nümayişinin də əsaslarının olduğu qənaətindədir:** "NATO infrastrukturunu öz sərhədlərinin qırağında görən ruslar da beynəlxalq aləmə çağırış göndərib deyirlər ki, iqtisadi zəiflik, xalqın demoqrafik ölümü və ya beyin axını göstəriciləri ilə aşağı yerə qoyduğunuz Rusiya hərbi cəhətdən güclüdür və dünyanın yenidən bölüşdürülməsində paya sahibi olmağa iddialıdır. Putin dünyada anti-Amerika əleyhdarlarını sonadək təşkilatlandıra bilməsə də, o, İslam dünyasından latın Amerikasınadək böyük bir məkanda nüfuz qazanmaqda davam edir. Moskva Belorusdan Çinədək uzanan və iki qitəni əhatə edən Avrasiyada hegemon bir güc olduğunu göstərməyə çalışır. Bu mənada başqa silahın gedib Amerikaya çatmadığını nəzərə alıb, onlar plutoniumun-nüvə silahının əsas maddəsinin zərərsizləşdirilməsi proqramından çıxdıqlarını bəyan etdilər. Ona görə də indi Qərb mediası bütün ölkələri Rusiya ilə qorxudur, sanksiyaların dərinləşdirilməsi ideyasına yeni tərəfdarlar qazanmağa çalışır. Və nəinki yaxın Şərqin, eləcə də Avropanın hava məkanını, siyasi və iqtisadi həyatını rusların üzünə bağlamağa çalışır. Halbuki Polşa da daxil, digər dövlətlərin təhlükəsizliyi sovet zamanında olduğu kimi, Vaşinqton və Moskva arasındakı konfrontasiyanın girovuna çevrilib. Nüvə təhlükəsindən danışanda hər kəs rusları hədəf göstərir. Bəs ötən həftə yeni raketlərini sınaqdan çıxaran Birləşmiş Ştatlardan niyə danışmırlar? Hər halda, Putin gedib Meksikada Obamaya meydan oxumur. Ona görə də Qərb dünyadakı avantürist bir siyasəti hədəf etməsilə gəlib belə bir reallığa dirənib. İranı atom bombasından uzaq tutmaq üçün onu İslam inqilabına görə 30 ildir sanksiya rejimində boğanlar birdən ayılıb, dini hakimiyyəti demokratik elan edirlər və hamını faşist Rusiyasına qarşı birləşməyə dəvət edirlər. Lakin indi nüvə dilində danışanlar fərqində deyillər ki, yüz minlərlə insanın qətlinə səbəb olan bu qlobal qarşıdurma və gərginliyin getdikcə artması tendensiyası terror qruplarının imkanlarını genişləndirir və İslam xilafəti olmasa da, başqa ekstremist qüvvələrin kütləvi qırğın silahı hazırlayan texnologiyaları ələ keçirmək şansını artırır".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016



# Nobel nitqindən qəliz esselər

Samir SARI

**Başlayaq Bob Dilandan, sonra mətləb üstünə gələrik. Srağagün ədəbiyyat üzrə Nobel mükafatını bu kişiyə veriblər, ölkəmizdə və dünyadakı ədəbiyyatsevərləri mat qoyublar. Bizim hələ 100 manatlıq "Qızıl qələm" mükafatı almamış gənc ediblər də xeyli pəjmürdə olublar ki, bəs nədən ən böyük ədəbiyyat ödülü bir musiqiçiyə verilib.**

Əslində vəziyyət başqa cürdür. Bu sətirlərin müəllifi dünyaya göz açmazdan yazıb yaratmaqla məşğul olan, Robert Allen Zimmerman adı daşıyan Bob Dilan şairdir. Vikipediyasındakı "Peşələri" qrafasında beləcə də qeyd olunur: "Şair, bəstəkar, gitaraçı, müğənni".

Adam 1965-ci ildən bu günə qədər 36 disk buraxıb, mahnılarının sözlərini, musiqisini özü yazıb, səsi varmış deyə özü oxuyub, çalğıçılığını da özü eləyib. Yəni hərtərəfli istedaddır maestro Dilan.

İngilisdilli şeir xiridarları şahidlik edə bilər ki, Bob Dilanın şeirləri unikaldır, təxminən Anadolu türklərinin dilinin əzbəri olan Camal Süreyya və Özdəmir Asəf kimi bir qələm adamıdır. Bu adamın eyni zamanda parlaq musiqiçi olması onun minusu deyil, üstünlüyüdür.

Ona qalsa, son 50 ildə Türkiyədə ən gözəl şeirləri Kayahan və Ferdi Tayfur yazıblar, amma musiqiçilikləri daha parlaq, daha populyar olduğu üçün hamı onları şair kimi yox, musiqiçi kimi tanıyır.

Məsələn, Ferdi babanın belə misraları var: "Sən rüyalar aləmində, yeni aşklar həvəsində, mənsə yenə uykusuzum bir sabahçı kahvesində"... Yaxud Kayahan deyir ki: "Bizimkisi bir aşk hekayəsi, siyah-bəyaz film kimi bir az, göz yaşı, umud və ehtiras, bizimkisi alev kimi bir az". Hələ bu mahnının sonunda dediyi şer parçası... Bu mətnlərdə, Nekrasov demişkən, poeziya gecələyib.

Yəqin Bob Dilanın da musiqi bəstələdiyi şeirləri bu cürdür. Yoxsa adama durduğu yerdə, sinninin 75-də niyə ədəbiyyat mükafatı versinlər, "Qremmi"dən-zaddan verərdilər. Heç "Qremmi" və "Oskar" da "Nobel"dən geri qalan ödüllər deyil.

İndi görək Bob Dilan bir-iki aydan sonra ödülünü alanda auditoriyanın qabağında hansı esse ilə çıxış edəcək. Nobelçilərin ödül esseləri bir başqa olur. Məsələn, Orxan Pamukun Nobel essesi ("Atamin çamadanı") o qədər uzun və o qədər güclü olub ki, hələ də dillər əzbəridir. Yəqin Bob Dilanın Nobel essesi qısa, ancaq möhtəşəm olacaq.

İndi gələk esse məsələsinə. Bu dəfə söhbət orta məktəb şagirdlərinin yazmalı olduğu esselərdən gedir.

Çox çətindir, hörmətli oxucular. İndiyədək demək olar ki, bütün mövzularda minlərlə esse və felyeton yazmışam, amma 8-ci sinif şagirdinə verilən esse mövzusunun qarşısında girinc-giriftar qalıram, bütün potensialımdan istifadə edərək yeddi cümləlik essenin başa gəlməsinə kömək edirəm.

Bəs başqa valideynlər necə edir, görəsən? Axı hamı yazıçı, jurnalist, filoloq deyil. Ölkə əhalisinin 75 faizi ərizəni başqalarına yazdırır, onlar övladlarının esse yazmasına necə kömək edirlər? Budur məsələ.

Hətta sizə əminliklə deyirəm, bu saat ölkə jurnalistlərinin 50 faizdən çoxu o esseləri yazmaq gücündə deyil. Amma Təhsil Nazirliyi tələb edir ki, 12-15 yaşlı, ömürlərində ən çoxu 5-6 bədii kitab oxumuş (əksəriyyət etibarilə oxumamış) uşaqlar Nobel nitqi qədər qəliz esse yazsınlar.

Məsələn, axırıncı dəfə yaquarıma verilən esse mövzularından ən asanı qlobal istiləşməyə dair idi və o, bu problemin həllinə dair düşüncələrini yazmalıydı. NASA-nın, İsveç, Norveç, Kanada, ABŞ və Yaponiya alimlərinin həllini tapa bilmədiyi problemin cavabını 13 yaşlı azərbaycanlı uşaq biləcəkmiş.

A kişi, sən bunlardan Messini, Ronaldonu, "Barselona"nın heyətini soruş, cavab versinlər, uşaq nə bilir qlobal istiləşmə nədir? Qoy birinci qlobusu öyrənsinlər, sonra kainatı xilas edərlər.

Əminliklə deyə bilərəm ki, orta məktəb şagirdlərinə verilən mövzularda yazılan esselərin 99,0009 faizini ya valideynlər, ya da qonşu müəllimlər yazır. 0,0001 faizi də ona görə saxlayıram ki, vunderkind uşaqların haqqı yeyilmiş olmasın.

Hətta cəsarətlə deyirəm ki, esse mövzusunu özü yazan şagird tanıyırsınızsa, redaksiyamıza göndərin, Rauf Arifoğlu onu hazır jurnalist kimi işə götürsün, orta məktəbi bitirməyinə, universitet qurtarmağına ehtiyac yoxdur.

**Yaxın günlərdə Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) yüksək vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. Hakim qarşısına nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov, "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin sabiq rəhbəri Beytulla Hüseynov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi Anar Mustafayev, "AzİnTelekom" MMC-nin sabiq baş direktoru Cəlil Cəfərov, "Azərpoçt" MMC-nin sabiq baş direktoru Qəmbər Bəybalayev, "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin baş mühasibi Səhrab Hümbətov, Emin Məmmədov və digər şəxslər çıxarılacaqlar.**

# "Rabitə çetesi"nin məhkəməsi başlayır - Əli Abbasov təlaşda

## Prezidentin "dövlətə xəyanət" hesab etdiyi yeyinti və korrupsiya faktları üzrə məhkəmə 11 il nazir işləmiş Əli Abbasovu da bitirə bilər...



Əli Abbasov



Vidadi Zeynalov



Beytulla Hüseynov

Baş Prokurorluğun RYTN-dəki həbslərlə bağlı 2015-ci ilin noyabr ayının 13-də yaydığı rəsmi məlumata görə, nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun qulluq mövqeyindən sui-istifadə edərək 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməsində şübhələr üçün əsaslar müəyyən edildiyi qeyd olunur.

Bildirilir ki, bundan başqa, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən RYTN sistemində həyata keçirilmiş yoxlamalar nəticəsində M.Məmmədov, B.Hüseynov, A.Mustafayev, C.Cəfərov, Q.Bəybalayev, S.Hümbətov, E.Məmmədov, Fətullah Seyidov, Rəşad Məmmədov, Bayram Vəliyev və Oktay Rüstəmov da saxlanılıb. Daha sonra məhkəmə onlar barəsində həbs-qətimkan tədbirinin seçilməsi barədə qərar verib.

Həmin şəxslər Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ittiham olunurlar. Bu rəsmi məlumat yayılmazdan 1 gün əvvəl - ötən il noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı ilə rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov vəzifəsindən azad edilmişdi. Belə xəbərlər də vardı ki, MTN-də baş verənlərin ardından RYTN-dəki həbslər əsasən gizli dinləmələrlə bağlıdır. Belə ki, Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldıqdan sonra Milli Təhlükəsizlik Nazirliyindəki (MTN) sensasion həbslərin kökündə dayanan əsas məqamlardan birinin məhz ölkə rəhbərliyinə daxil olan şəxslərin qanunsuz olaraq gizli dinlənilməsi göstərilirdi. MTN-in gizli dinləmələrə məsul Monitorinq Mərkəzinin sabiq rəisi general-mayor Teymur Quliyevin saxlanılmasından sonra RYTN-də də yoxlamaların, ardından həbslərin keçiriləcəyi gözlənilən idi.

Əvvəl Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri, Eldar Mahmudovun qohumu Beytulla Hüseynov saxlanıldı. Bunun ardınca Rabitə Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov həbs olundu. Oktyabrın 28-də isə Rabitə Nazirliyinin daha bir yüksək vəzifəli şəxsi - Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin (BƏHM) direktoru Cəlil Cəfərov saxlanıldı. Bu həbslər o anlama gəlirdi ki, MTN RYTN-dəki adamları vasitəsilə uzun illər Azərbaycanın siyasi hakimiyyət mənsublarının təkcə ölkədaxili deyil, xariclə də telefon danışıqlarını, teleqram və fakslarını nəzarətdə saxlayıb.

Bu həbslərdən sonra nazir Əli Abbasov Baş Prokurorluqda istintaqa çağırıldı, işdən çıxarıldı. Belə aydın oldu ki, Ə.Abbasov istintaqa çağırılanda və ondan hesab sorulanda nazirlikdə baş verənlərə nəzarəti itirdiyini söyləyib. Günahı işçilərinin üzərinə atıb, əsasən Aparat rəhbəri Vidadi Zeynalovun adını çəkib. Bu faktlar üzə çıxdıqdan sonra prezident 2004-cü ildən görəv verdiyi nazirin bu işləri bilib gizlətməsini xəyanət kimi dəyərləndirib və işdən azad olunması barədə qərar verib. Prezident İlham Əliyev rabitə nazirini işdən qovduqdan sonra Nazirlər Kabinetinin 2015-ci ilin yekunları ilə bağlı müşavirəsində bəyan etdi ki, RYTN-də həyata keçirilmiş qanunsuzluqlar sıradan bir cinayət hadisəsi yox, ağır cinayətdir, dövlətə xəyanətdir.

**Sitat:** "Yoxlamalar göstərir ki, bu vəsaitdən vicdansızlıqla istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir - 3 dəfə, 4 dəfə. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir".

İşdən qovulmuş Əli Abbasovu bu çıxışdan sonra YAP-dan da çıxardılar. Prezident Əli Abbasovu işdən qovduqdan sonra RYTN-də baş verənlər haqda danışması və çox sərt ifadələr işlətməsi sabiq nazir üçün həbsxanaya yolunun görünməsi kimi qiymətləndirilmişdi. Çünki prezidentin "dövlətə xəyanət" hesab etdiyi yeyinti və korrupsiya faktları 11 il nazir işləmiş Ə.Abbasovun nəzarətindən kənar baş verə bilməzdi. Amma gözlənilənlər baş vermədi, Əli Abbasovu təqsirləndirilən şəxs olaraq istintaqa cəlb etmədilər. Göründüyü kimi, onun adı "Rabitəçilərin işi" üzrə məhkəməyə göndərilən ittiham aktında yoxdur. Bu heç də o demək deyil ki, Ə.Abbasov tamamilə qurtulub. Məhkəmə zamanı vaxtilə tabeçiliyində olmuş şəxslərin ifşaedici ifadələri Əli Abbasovun məhkəmə zalında həbsi üçün yetərli ola bilər. Məsələn, RYTN-in sabiq aparat rəhbəri Vidadi Zeynalov dəfələrlə vəkili vasitəsilə nazir olmadığını bəyan etməklə suç ortağının kimliyini ortaya qoyub.

"Yeni Müsavat"ın 23 avqust 2016-cı il tarixli sayında dərc olunan "Vidadi Zeynalova yeni ittiham verildi - aparat rəhbərinin vəziyyəti ağırlaşdırılır" http://musavat.com/news/son-xeber/vidadi-zeynalova-yeni-ittiham-verildi-aparat-rehberinin-veziyyeti-agirlashdirilir_372610.html sərlövhəli yazıda V.Zeynalov vəkili vasitəsilə birbaşa Əli Abbasovun qollarını qandallamağa əsas verən fikirlərini ictimiyyətə çatdırmışdı.

**Həmin yazıdan sitat:** "Vidadi Zeynalov ittihamlar üzrə günahsızdır. Maddi məsul şəxs deyil. Verilmiş ittihamların subyekti Vidadi Zeynalov ola bilməz. Vidadi Zeynalov nazir, nazir müavini olmayıb, bu baxımdan da Vidadi Zeynalov ittihamları qəbul etmir. Vidadi Zeynalova qarşı yeni ittiham Cinayət Məcəlləsinin 313-cü - vəzifə saxtakarlığı maddəsi ilə irəli sürülüb. Vidadi Zeynalov həbs edilən gündən bu günə qədər irəli sürülən ittihamlar tam şəkildə əsassızdır. Vidadi Zeynalov deyir ki, fəaliyyətində heç vaxt qanunsuzluqlara yol verməyib. O, verilən tapşırıqların icraçısı olub. Vidadi Zeynalov maddi məsul şəxs olmamaqla yanaşı, sərəncam vermək hüququna malik olmayan şəxsdir. Bu məsələlərin Vidadi Zeynalova aidiyyəti yoxdur".

V.Zeynalovun vəkili vasitəsi ilə sərgilədiyi mövqeni məhkəmə araşdırmaları zamanı da ortaya qoyacağı təqdirdə son illər ərzində Azərbaycanda həbs edilən nazirlərin biri də arta bilər. Yaxın günlərdə "Rabitəçilərin işi" üzrə başlanacaq məhkəmə prosesi Əli Abbasova yaxşı heç nə vəd etmir.

E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016



# Cahangir Hacıyevə ağır cəza verildi - 15 il həbs

## Sabiq bankirin əmlakı müsadirə olundu; 110 minlik saatı, sikkəsi və qızıl lövhəsi də dövlət nəfinə keçdi; o, 70 milyon manat da pul ödəməlidir

**Oktyabrın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində Beynəlxalq Bankın sabiq idarə heyətinin sədri olmuş Cahangir Hacıyev və onunla birlikdə təqsirləndirilən 7 nəfərin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərin cəzaları elan olunub.**

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hökmə əsasən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin idarə Heyətinin keçmiş sədri Cahangir Hacıyev 15 il müddətinə azadlıqdan məhrum edilib.

Elan olunan hökmə əsasən digər təqsirləndirilən 7 nəfərdən üçünə azadlıqdan məhrum etmə, dördünə isə şərti cəza verilərək məhkəmə zalından azadlığa buraxılıblar.

Bankın Mərkəz filialının rəhbəri olmuş Anar Sultanov 7 il 6 ay, Nərimanov filialının keçmiş direktoru, hazırda isə AFB bankın müşahidə Şurasının üzvü olan Məmməd Cahangirov 7 il 6 ay, Nəqliyyat filialının keçmiş müdiri Kənan Orucov 7 il 23 gün cəza alıblar. Bu şəxslər "Beynəlxalq Bank işi"nə görə həbs edilsələr də sonradan barələrində polis nəzarəti ilə qətimkan tədbiri seçilmişdi.

Digər təqsirləndirilən, bankın Mərkəz filialının müdir müavini olmuş İlqar Abdullayev də 6 il 5 ay 5 gün şərti cəza alıb. Hökm elan olunanadək həbsdə olan İlqar Abdullayev məhkəmə zalından azadlığa buraxılıb.

İstintaq və məhkəmə müddətində barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilmiş Bakı Fındıq Emalı Zavodunun keçmiş müdiri Azad Cavadov isə məhkəmə zalında həbs olunub. Cahangir Hacıyevin tələbə yoldaşı və yaxın dostu olan Azad Cavadova 10 il 11 ay 9 gün həbs cəzası verilib. O, məhkəmə zalında qandallanaraq həbs edilib.

Digər təqsirləndirilən şəxslər - Beynəlxalq Bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru olmuş İbrahim Hüseynov 8 il, bankın Mərkəz filialının keçmiş direktoru Yusif Ələkbərov 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Hökmə əsasən Cahangir Hacıyevin evində axtarış zamanı götürülmüş 110 min dollarlıq qol saatı, üzərində "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri Cahangir Hacıyev" yazılmış qızıl lövhə və bir ədəd qızıl sikkə də müsadirə olunub.

Məhkəmə həmçinin Cahangir Hacıyevin banka vurduğu zərərin ödənilməsi ilə də bağlı qərar çıxarıb.

Sabiq bankirə banka qaytarılmayan kreditlərə görə dəymiş ziyanı ödəmək öhdəliyi qoyulub və bu məqsədlə ondan 63 milyon 800 min tutulmasına qərar verilib.

Məhkəmənin hökmündə elan olunub ki, Cahangir Hacıyev və digərlərinə qarşı qaldırılmış iki - Beynəlxalq Banka dəymiş 211 milyon manat və "Aqrarakredit" QASC-yə dəymiş 7 milyon 423 min manatlıq mülki iddiadan biri tam, biri isə qismən təmin edilib.

Belə ki, hökmdə qeyd edilib ki, ittiham aktında qeyd edilən 211 milyondan 102 milyon manatı ödənilib, qalan 109 milyon isə bağlanılmamış qalıb. Məhkəmə bu mülki iddianın qismən təmin edilməsini, bağlanmamış məbləğin təqsirləndirilən şəxslərdən tutularaq banka ödənilməsi ilə bağlı qərar verib.

"Aqrarkredit" QSC-nin mülki iddiası isə tam təmin edilib. Qərara əsasən QSC-yə dəymiş 7 milyon 423 milyon manatlıq zərərin Cahangir Hacıyev tərəfindən ödənilməsi ilə bağlı qərar çıxarılıb. Bununla da məhkəmə Cahangir Hacıyevdən ümumi olaraq 70 milyon dəymiş zərərin alınması ilə bağlı qərar çıxarıb.

Cahangir Hacıyevin vəkili Aqil Layıcov elan olunan hökmə münasibət bildirib.

O qeyd edib ki, hökmdən apelyasiya şikayəti veriləcək: "Maraqlıdır ki, hakim sənədləri tədqiq eləmədən mülki iddianı təmin etdi. Cahangir Hacıyev və ona yaxın olan adamları həbs etdilər. Digərləri barəsində isə həbslə bağlı olmayan cəza verildi. Təbii ki, mən hamısının azadlıqda olmasını istəyirəm. Çünki hesab edirəm ki, bu işdə cinayət tərkibi yoxdur. Təbii ki, məhkəmədən də elə bu cür mövqe gözləyirdim. Nə deyildisə, onu da etdilər".

Cahangir Hacıyevin bacısı Əminə Hacıyeva da məhkəmə prosesindən sonra musavat.com-a açıqlamasında qardaşına verilən cəzaya münasibət bildirib.

**Hökmün qanunsuz və əsassız olduğunu deyən Ə.Hacıyeva bu işin yenə də Maliyyə Nazirliyi tərəfindən qurama olduğunu söyləyib:** "Bu, Maliyyə Nazirliyi tərəfindən qurama işdir. Bütün qara əməllərə görə bir adamı qurban vermək lazım idi. Bunun üçün də Cahangiri seçdilər".

**Ə.Hacıyeva bu qərarı əvvəlcədən gözlədiklərini və hazırlıqlı olduqlarını da qeyd edib:** "Onsuz da vaxt gələcək və hər şey açılacaq. Heç nə sübuta yetirilmədi. Heç nə sübuta yetirilmədiyi halda necə hökm verilə bilər? Sifarişli iş belə də olmalı idi".

Axşam saatlarında isə Cahangir Hacıyevin metronun "İçərişəhər" stansiyasının yaxınlığında yerləşən mənzili polislər tərəfindən nəzarətə götürülüb.

Bu barədə musavat.com-a C.Hacıyevin yaxınları məlumat verib.

Həmçinin bacısı Əminə Hacıyevaya məxsus Mərdəkandakı bağ evi və anasından miras qalan evi də nəzarətə götürülüb.

Ehtimala görə, bu əməliyyat əmlakın müsadirə olunması ilə bağlıdır.

❑ **İlkin MURADOV**

# Akif Çovdarov içəridə özünü necə öldürə bilər?

## Ekspert: "Son zamanlar o, hüquqi və məntiqi baxımdan gülünc bəyanatlar verir"

**Hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan, ləğv edilmiş MTN-in həbsdəki generalı Akif Çovdarovun özünə qəsd etməməsi üçün ona ciddi nəzarət edilir. Bu barədə məlumatı A. Çovdarovun vəkili Kamandar Nəsibov yayıb.**

K. Nəsibovun sözlərinə görə, Akif Çovdarov ona deyib ki, həm Penitensiar Xidmət, həm də Ədliyyə Nazirliyinin Tibbi Baş İdarəsinin rəhbərliyi onun səhhətinin kəskin dərəcədə ağır olduğunu və hər an ölə biləcəyini çox gözəl bilir: "Yeganə nəzarətdə saxlanılan məsələ mənim özümə qəsd etməyim və ya xəsarət yetirməyimlə bağlıdır. Nəzarət edirlər ki, buna imkan verməsinlər. Bu səbəbdən də daim təcridxananın əməkdaşları tərəfindən nəzarətdə saxlanılıram", - deyə Çovdarov vəkilinə bildirib.

Bəs Akif Çovdarov içəridə özünə necə qəsd edə bilər, bundan ötrü onun hansısa imkanı varmı?

Bəllidir ki, hər il dünyada minlərlə insan intihar etməklə öz həyatına son qoyur. Lakin azadlıqdan fərqli olaraq, təcridxanada vəziyyət başqadır. Belə ki, təcridxanada saxlanılan şəxsin özünə xəsarət yetirməsinin qarşısını almaq üçün bütün məsələlər incəliklərinə qədər düşünülüb. Bununla belə, həbsxanada da canına qəsd etmək istəyən insanlar az deyil. Onlar əksər hallarda ya başlarını divara vururaq, ya da müxtəlif növ kəsici vasitə ilə həyatlarına son qoyurlar.

**Bu barədə "Yeni Müsavat"a danışan sabiq polis rəisi Mahmud Hacıyev bir sıra məqamlara toxundu. M. Hacıyev bildirdi ki, generala nəzarət, normalda sıravi dustaq üzərindəki nəzarətdən fərqli olmalıdır:** "İlk olaraq onu deyim ki, bunu bir yol tapıb edir. Yəni bunu o, öncədən elan etmir. Həbsxana, təcridxana işçilərini buna görə günahlandırmaq da olmaz. Sadəcə olaraq, əgər intihar hadisəsi və ya buna cəhd baş verirsə, xidməti təhqiqat aparılır. Təhqiqat əsasında onun nə ilə və necə intihar etməsi məsələsi araşdırılır. Bütün bu təhqiqatların nəticəsindən sonra rəhbərlik səviyyəsində ölçü götürülür. Bu hadisənin qarşısını almaq mümkün idimi, intihar predmeti orada olmalıydımı və digər bu kimi halların hamısı araşdırılır. Təhqiqat sonunda yazılan rəyin müzakirəsi zamanı məlum olsa ki, intiharın qarşısını almaq mümkünmüş, o zaman təcridxananın işçiləri inzibati qaydada cəzalandırılır. Hətta onların günahı daha çoxdursa, orqandan xaric edirlər. Belə hallar olub".



**Ekspertə görə, Akif Çovdarov həqiqətə uyğun olmayan açıqlamalar verir:** "Ümumiyyətlə, Akif Çovdarov kimi dustaqlara qarşı xüsusilə nəzarət gücləndirilir. Akif Çovdarov son zamanlar hüquqi, məntiqi baxımdan gülüş doğuran bəyanatlar verir. Bir dəfə də bəyanat verdi ki, agentura şəbəkəsinin kimlərdən ibarət olduğunu açıqlayacam. Heç onların agentura şəbəkəsi mövcud deyil. Eldar Mahmudov və onun dəstəsi MTN-in məxfi əməliyyat şəbəkəsini məhv elədilər. Əgər onlar bunu iflic ediblərsə, hansı şəbəkədən söhbət gedir? İndi də deyir ki, içəridə mənə nəzarət edirlər ki, özümü öldürməyim. Aydın məsələdir ki, bu adam pis-yaxşı general olub. Hazırda da məhkəmə prosesi gedir. Onun üzərində təbii ki, nəzarət olmalıdır. Xuliqanlığa görə saxlanılanla Akif Çovdarov üzərindəki nəzarət eyni ola bilməz".

**1 il 6 ay Bakı İstintaq Təcridxanasında saxlanılan jurnalist Əvəz Zeynallı da oradakı vəziyyətlə bağlı danışdı. O da bildirdi ki, bir adam istərsə, hər yerdə özünü öldürə bilər:** "O cümlədən Kürdəxanıda. Ancaq təbii ki, orada sistem elədir ki, az nəzarət olarsa, özünü öldürmə imkanları minimuma enir. Çünki hər kameranın nəfəsliyi var və oradan 24 saat nəzarət olunur. Eyni zamanda təbii ki, Akif Çovdarov otaqda tək qalmır. Yəni onun otaq yoldaşları da intihar etməsinə mane ola bilər. Lakin özünü öldürmək istəyən adamın da qarşısını almaq olmaz. Gecə yatanda damarını dişi ilə kəsər, qanını axıdar özünü öldürər. Bunu da heç kim öncədən bilməz. Görünür ki, Akif Çovdarovda özünü öldürmə hissi hələ bir o qədər də irəli getməyib".

**Ə. Zeynallıya görə, içəridə pəncərədən insanın özünü asması mümkün deyil:** "Kürdəxanıda pəncərədən özünü asmaq çox çətindir. Akif Çovdarov özü cüssəli adamdır. O tip adamların pəncərə vasitəsilə özünü asması mümkün deyil. Oradakı pəncərələr qurşaqdan aşağıdır. İlqar Əliyevin özünü asdığı zaman da demişdim ki, bu, sadəcə olaraq, nağıldır. O tip yerlərdə 15 dəqiqədə adam özünü öldürə bilməz. Normal nəzarətdə bunu etmək mümkün deyil".

Yada salaq ki, ötən ilin dekabr ayında Bakı İstintaq Təcridxanasından (BİT) 2 gün fərqlə 2 dustaq - ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Anti-Terror Mərkəzinin rəis müavini olmuş İlqar Əliyevin və onun kamera yoldaşı olduğu deyilən Manaf Məmməd oğlu Paşayevin meyitləri çıxmışdı.

❑ **Əli Rais**



# Qarşılıqlı pambıq terapiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Xaricdən Məmməd Nəzim adlı oxucumuz yazır: "Sizdən xahiş edirəm bu mövzuya diqqət ayırasınız. 4 ay öncə İlham Əliyev turizmə dəstək məqsədi ilə Azərbaycana bütün növ giriş vizalarının 20 dollar olması barədə fərman imzalayıb, ancaq Azərbaycanın xarici ölkələrdəki heç bir səfirliyi bu fərmana əməl etmir. Vizaların qiyməti 50-80 avro arasında dəyişir. Qəzetiniz vasitəsilə Elmar Məmmədyarovdan soruşun görək o hansı ölkənin xarici işlər naziridir və niyə tabe olduğu prezidentin fərmanına əməl eləmir. Səfirlər nədən səfirlikləri biznes obyektinə çeviriblər?"**

Mən oxucunun sözünü yerə salmadım, Elmar müəllimdən soruşdum. Elmar müəllim dedi: "Bilirsinizmi, Qarabağ danışıqları platformunda ATƏT-in Minsk Qurpu şey eləmişdi, zad, ondan sonra qələt status kvonun kohnəldiyini bilirik və əminəm bunlar bizim sabitliyə qarantiya olaraq maraqlanacaqdır, ərazi bütövlüyü vizaların alınmasında islahatların uğurudur, həm də pambıq yığımı davam edir".

Doğrusu, diplomatik terminləri və qədim Urartu dilini anlamaqda bir az çətinliyim var, o üzdən NK yanında Tərcümə Mərkəzinə müraciət elədim, orda cavabı dilimizə çevirdilər. Sən demə, Elmar müəllim xaricdə yaşayan azərbaycanlılara və sairə turistlərə xəbərdarlıq edibdir: "Qələtinizi edin, viza neçəyədir, özümüz bilərik, xoşunuz gəlmir ayrı ölkəyə gedin, çox o yan bu yan etsəniz, sizi aeroportdan birbaşa pambıq tarlasına basarıq".

Həqiqətən, hazırda ölkəmizdə şıdırğı pambıq yığımı gedir, bu işlə məşğul olanlar arasında Göyçay xəstəxanası, Saatlı tarix-xiyarşünaslıq *(bəlkə də diyarşünaslıq - dəqiq bilmirəm - Z.H.)* muzeyi, Sabirabad mədəniyyət şöbəsi, İmişli məktəbliləri, Yardımlı müəllimləri və sairə aktiv iştirakçıdır. Hətta cəbhə xəttindən Zakir müəllim də bir neçə briqada və zirehli maşınlarla pambıqçılara yardıma gəlmişdir. Şəxsən mən yoldaş Amaşovdan incimişəm, bizi pambıq yığmağa aparmır. Sanki jurnalistlər manqurtdur.

Burda bir incə məqam var. Zəhmətkeşlərimiz həkimlərin və başqa peşə yiyələrinin zor-xoş pambıq yığımına, ümumən kənd təsərrüfatına cəlb edilməsini pisləyirlər. Doğrudan da, bu, quldarlıq, feodalizm dövrü əlamətidir. Pambıq yığan həkim, küçə süpürən müəllim təbii ki, öz peşəsini unudacaqdır. SSRİ vaxtı da belə oldu. Axmaq kommunist rejimi hər peşəni öz istədiyi şəkildə, tamam ayrı işlərə sürürdü, nəticədə adamlar dərs demək, elm oxumaq, məhsul düzəltmək yerinə mənasız imiciliklərə, mitinq və paradlara, iclaslara gedirdilər. Əsgərlər təlim yerinə, tikinti ilə məşğul olurdu. Rüşvət və korrupsiya də bir tərəfdən. O üzdən, peşəkarlıq itdi, dövlət darmadağın oldu. Ancaq indi Göyçay Mərkəzi Xəstəxanasının pambıq yığımından imtina eləməyə haqqı varmı? Yoxdur. İzah edim, özünüz baxın.

2012-ci ildə AzadlıqRadiosu-nun araşdırmasına görə, məhz bu xəstəxana dövlət büdcəsinin oğurlanması prosesində oyunçulardan biri kimi ifşa edilmişdi. Göyçay Mərkəzi Xəstəxanasının illik dəftərxana xərcləri 2011-ci ildə ağla gəlməz miqdarda idi: 270 min manat! Bir xəstəxana bu qədər kağız-kuğuz işlədə bilərmi? Müqayisə üçün, həmin il Bakıdakı Azərbaycan Dövlət Pedaqoji Universitetinin ("APİ") dəftərxana xərci cəmi 49 min 678 manat idi.

O cümlədən, maraqlansan həmin mədəniyyət evləri və diyarşünaslıq muzeyləri də xəstəxanalar kimi "ölü canlar", artıq ştat vahidləri, mənasız strukturlarla doludur. Xalqa bir qəpik xeyir vermədən hərəsi bir tərəfdə zəli kimi oturub xırda-xırda büdcəni sümürürlər. 2011-ci ildə neft pulu sel tək gəlirdi, Göyçay xəstəxanasının şişirdilmiş kollektivi də yapist rejimdən aldığı pulları xərcləyib müxtəlif rejim sifarişlərini yerinə yetirirdi. Bura seçkilərdə saxtakarlıqdan tutmuş müxalifəti şərləməyə, yaltaqlıqdan oğurluğa qədər min cür çirkin əməllər daxil idi. Onlar indi də bu tip işlər görürlər, sadəcə, dövlət sifarişinə pambıq yığmaq da daxil edilib. Müftə pulların əvəzini verməlisən. Yoxsa özünə hörmət edən, peşəkarlığına güvənən həkimin, tibb işçisinin pambıq yığımında nə iti azıb?

---



# "Rus NATO-su" İrəvandan NATO-nu hədələdi - ermənilər xoflandı

## İşğalçı ölkənin alyansın hədəfinə gəlmə təhlükəsi düşmən ölkədə həyəcan yaratdı; rəsmi İrəvanın Qarabağ məsələsini KTMT-nin gündəliyinə salmaq cəhdi fiasko oldu

**Dünən İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT, ona "Rus NATO-su" da deyilir) üzv ölkələrin başçılarının sammiti keçirilib. Rusiya, Belarus, Qırğızıstan, Ermənistan və Tacikistan prezidentlər səviyyəsində təmsil olunub. Qazaxıstan prezidenti Nursultan Nazarbayev isə xəstəlik səbəbi ilə tədbirə qatılmaqdan imtina edib - hərçənd səfərin təxirə salınmasını siyasi səbəblə bağlayanlar da var. Nazarbayevin əvəzinə İrəvana qazax baş nazir gəlib.**

Rusiya lideri Vladimir Putini hava limanında erməni həmkarı Serj Sərkisyan şəxsən qarşılayıb. Maraqlıdır ki, Putin Ermənistana Gürcüstan yox, Azərbaycan üzərindən uçaraq gəlib. Bu barədə xəbəri armrus.info portalı yayıb. Portalın iddiasına görə, Kreml başçısı bununla həm də İrəvana Qarabağ mesajı verib.

***

İrəvan sammitində indiyədək qurum çərçivəsində qəbul olunmuş qərarların yerinə yetirilməsi ilə bağlı vəziyyətin müzakirəsi, təşkilata rəhbərliyin Ermənistandan Belarusa keçməsi, qurumun yeni baş katibi qismində Ermənistan nümayəndəsinin təsdiqlənməsi, habelə beynəlxalq vəziyyətin müzakirəsi, təşkilatın işinin təkmilləşdirilməsi, terrorizmlə birgə mübarizə və digər məsələlər diqqət mərkəzində olub.

**Erməni rəsmi qaynaqlarına görə, gündəlikdəki 20 məsələ sırasında Qarabağa dair bəyanatın qəbulu da olub. Lakin az sonra Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov xəbəri təkzib edib:** "KTMT Qarabağı müzakirə etməyəcək". Bu da məntiqlidir, çünki erməni tərəfinin canfəşanlığına rəğmən, Dağlıq Qarabağ Azərbaycan ərazisi olduğundan, "Rus NATO-su"nun məsuliyyət zonasına daxil deyil. Beləcə, İrəvanın Qarabağ mövzusunu gündəliyə salmaq cəhdi fiasko olub.

Sammitdən öncə KTMT xarici işlər nazirləri Şurasının hazırkı sədri, Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın rəhbərliyi ilə üzv dövlətlərin xarici işlər nazirləri Şurasının, müdafiə nazirləri və təhlükəsizlik şuraları katibləri Komitəsinin birgə iclası olub.

***

"Sessiyada KTMT ölkələri liderləri əvvəllər qəbul edilmiş anlaşmalardan dolayı kifayət qədər geniş spektrli məsələləri müzakirə edəcək, qurumun yaxın perspektiv üçün fəaliyyət oriyentirlərini müəyyənləşdirəcək bir sıra sənədləri nəzərdən keçirəcəklər". Bunu sammitin açılışı zamanı Ermənistan prezidenti Serj Sərkisyan deyib.

Lakin ən önəmlisi sammitdə KTMT-nin NATO-ya qarşı duracaq bir hərbi-siyasi blok qismində təsbit olunmasına yönəlik məsələlərin müzakirəsi idi. Belə ki, son vaxtlar ABŞ və NATO-nun Şərqi Avropanın Rusiya ilə həmsərhəd ölkələrində (Polşa, Rumıniya) yeni Raketdən Müdafiə Sistemləri (RMS) yerləşdirməyə başlaması Moskvada güclü qıcıq yaradıb. Kreml rəsmiləri bununla bağlı hətta alyansın ünvanına hədələr ünvanlamaqdan da çəkinmir.

İrəvanda isə KTMT-də Rusiyanın nümayəndəsi Viktor Vasilyev deyib ki, "Ermənistan və KTMT-nin digər üzvləri Avropada ABŞ və NATO-nun RMS yerləşdirməsini öz təhlükəsizliyinə hədə hesab edir və o üzdən buna qarşı durmalıdır". Onun sözlərinə görə, məhz belə bir yanaşma KTMT-nin Kollektiv Təhlükəsizlik Strategiyasında əksini tapıb - hansı strategiya ki, bloku İrəvan sammitində təsdiqlənməlidir və 2025-ci ilədək olan müddəti nəzərdə tutur.

Rusiya nümayəndəsi onu da deyib ki, "əgər əvvəllər belə sistemlərin Avropada yerləşdirilməsi zərurəti İranın nüvə silahı təhlükəsi ilə bağlı idisə, artıq belə təhlükə yoxdur. Amma NATO-nun Polşa və Rumıniyada möhkəmlənməsi davam edir. Bu isə narahatlıq yaradır".

***

Məsələnin belə qoyuluşu zaman-zaman Rusiya ilə Qərb (ABŞ, NATO, AB) arasında ikili oyun oynayan, faktiki, iki stulda oturmağa çalışan (təkcə o fakt ki, KTMT-nin İrəvan sammiti ərəfəsində prezident Serj Sərkisyan ABŞ-a səfər edib, yəni faktiki, sammitə Nyu-Yorkdan gəlib, özlüyündə çox şeyi deyir) işğalçı Ermənistanda təlaş yaradıb.

**Erməni təhlilçi Akop Badalyan bununla bağlı öz şərhində yazıb:** "Rusiyanın narahatlığı onun öz problemidir. Ancaq Moskvanın öz problemini KTMT-yə keçirməsi artıq həm də Ermənistanın qayğısıdır - üstəlik də əgər Avropada yerləşdirilən RMS heç bir halda Ermənistanın təhlükəsizliyinə təhdid yaratmırsa. Bizə təhlükə heç də NATO RMS-dən gəlmir, Rusiyanın Azərbaycana silah tədarük etməsindən gəlir".

**Akopyana görə, əgər İrəvan Kremlin bu təşəbbüsünə qoşulsa və həmin sənədi imzalasa, o zaman bu, təkcə absurd qərar olmayacaq, eyni zamanda Ermənistanın təhlükəsizliyinə birbaşa təhlükə olacaq.** "Ermənistan bununla faktiki, özünü Avroatlantik təhlükəsizlik sisteminin rəqibi elan etmiş olacaq. Odur ki, İrəvan əlindən gələni etməlidir ki, Rusiyanın bu qəbildən təşəbbüsləri rədd edilsin. Əks halda, Ermənistan Rusiya-Qərb qarşıdurmasının qaynar ocağına cəlb edilmiş olacaq", - deyə erməni şərhçi qeyd edib.

**Başqa bir erməni analitiki - Musa Mikaelyan bu xüsusda yazıb:** "Problem ondadır ki, KTMT sammiti Rusiya ilə Qərb qarşıdurmasının kəskinləşdiyi, hətta yeni mərhələyə adladığı qəliz geosiyasi vəziyyətə təsadüf edir. Və belə bir vəziyyətdə qurumun baş katibi Nikolay Bordyuja İrəvanda bəyan edir ki, mövcud geosiyasi reallıqlar KTMT-nin hərbi potensialını artırmağı tələb edir. Bu isə əlbəttə ki, əsas verir düşünək ki, Qərblə qarşıdurmada Rusiya KTMT-ni daha kəskin əks-ələt qismində istifadə edə bilər. İrəvan sammitində ən intriqalı məsələ də odur ki, təşkilat üzvlərinə Rusiyanı bundan çəkindirmək nəsib olacaqmı? Bu alətin (KTMT - red.) mahiyyətcə Ermənistanın təhlükəsizliyinə heç bir dəxli yoxdur. Buna biz aprel müharibəsi zamanı öz dərimizdə artıq əmin olmuşuq - 102 vətəndaşımızı itirməklə".

Onu da qeyd edək ki, KTMT Akademiyası da İrəvanda yerləşir və dünən binanın açılışı olmalı idi.

***

Qəzet çapa gedərkən məlum oldu ki, İrəvan toplantısında KTMT-nin Kollektiv Təhlükəsizlik Strategiyası qəbul olunub. Qurumun baş katibi vəzifəsinə erməni generalın gətirilməsi məsələsi isə ertələnib. Sərkisyan bu məsələnin gündəmdən çıxarıldığını, ona bu ilin axırında Moskvada baxılacağını bildirib. Həmin posta Ermənistanın keçmiş müdafiə naziri Vaqarşak Arutunyanın təsdiqlənməsi gözlənilirdi.

❑ Siyasət şöbəsi

# Türkiyənin nikbin Qarabağ açıqlamasını Rusiya dərhal vurdu

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu oktyabrın 13-də Qarabağla bağlı maraqlı açıqlama verdi. Sitat: "Azərbaycanın 5 rayonunun qaytarılması ideyasını Rusiya bizimlə paylaşdı, biz isə dəstəklədik. Biz Qarabağ probleminin həlli üçün çox çalışmışıq. Minsk Qrupunun və Rusiyanın həmsədrləri bəzi konstruktiv təkliflər irəli sürüblər. Gündəmdə işğal olunmuş ən azı 5 rayonun Azərbaycana qaytarılması məsələsi durur. Rusiya bu təklifi paylaşdı, Türkiyə isə onu dəstəklədi. Bunu Azərbaycan tərəfi ilə də müzakirə etdik. Əgər bu cür addımlar atılsa, biz Azərbaycanın istənilən qərarını dəstəkləyəcəyik".**

## Azərbaycan XİN-dən Putinin köməkçisinə etiraz edildi; **Politoloq Şahin Cəfərli:** "Rusiyanın Qarabağla bağlı Azərbaycan üçün heç də sərfəli olmayan təklifləri ortaya çıxıb"

Onun bu qədər açıq və konkret bəyanat verməsi Qarabağ məsələsinin həllində real ümid yarandığını söyləmək üçün ciddi əsas sayıla bilərdi. Lakin cəmi bir neçə saat sonra Rusiyadan verilən açıqlamadan bəlli oldu ki, boşuna ümidlənmişik. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bəyan etdi ki, Moskva Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanacağına dair "böyük optimizm" içərisində deyil. Uşakov bunu Türkiyə xarici işlər nazirinin Moskvanın 5 rayonun azad edilməsini də nəzərdə tutan nizamlama planını tərəflərə təqdim etdiyi haqda bəyanatını şərh edərkən deyib: "Mən deməzdim ki, biz Qarabağ münaqişəsinin yaxın vaxtlarda həllinə dair böyük optimizm içərisindəyik. Bununla belə, İrəvan və Bakı ilə işi israrla davam etdiririk".

**Azərbaycan Xarici İşlər Nazirliyi Uşakovun bu bəyanatına münasibət bildirib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib ki, Uşakovun Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı açıqlaması təəccüb və təəssüf doğurur:** "Uşakovun bu açıqlaması prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərinin ruhuna və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin prezidentlər səviyyəsində status-kvonun qəbuledilməzliyi və qeyri-davamlılığı haqqında dəfələrlə verdikləri bəyanatlara ziddiyyət təşkil edir. Həmçinin bu açıqlama Rusiyanın xarici işlər naziri Lavrovun regiona intensiv səfərləri əsnasında münaqişənin həlli ilə əlaqədar aparılmış detallı müzakirələrə uyğun gəlmir. Azərbaycan dəfələrlə bəyan edib ki, Vyana və Sankt-Peterburq görüşlərinin ruhuna uyğun olaraq Ermənistan-Azərbaycan münaqişəsinin mərhələli həlli üzrə substantiv danışıqların tərəfdarıdır. Substantiv danışıqlar qəbuledilməz və qeyri-davamlı olan status-kvonun dəyişdirilməsi və işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasını təmin etməlidir".

Xatırladaq ki, bir neçə həftə əvvəl ABŞ dövlət katibi Con Kerri də "Dağlıq Qarabağ münaqişəsinin indiki mərhələdə həlli mümkün görünmür" bəyanatını vermişdi.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a şərhində bildirdi ki, Y.Uşakovun açıqlamaları Rusiyanın Qarabağla bağlı təkliflərini Azərbaycanın qəbul etmədiyini göstərir. Eyni zamanda aydındır ki, Ermənistan da hər hansı güzəştə hazır deyil:** "Con Kerri də bu yaxınlarda buna işarə etmişdi. Beləliklə, uğursuz danışıqlar prosesinin qısamüddətli aprel müharibəsindən sonra başlamış daha bir mərhələsi başa çatır. Çavuşoğlunun açıqlaması isə yalnız Türkiyənin xoş niyyətini və arzusunu ifadə edir. Türkiyə Azərbaycan ərazilərinin işğaldan azad olunmasını, ölkəmizlə Ermənistan arasında sülh əldə olunmasını istəyir. Bu, öz növbəsində Türkiyənin də Ermənistanla münasibətlərinin istiləşməsinə əsas yaradacaq, sərhədlər açılacaq, əlaqələr inkişaf edəcək. Lakin Türkiyə münaqişənin həlli prosesində iştirak etmir və Minsk Qrupunun üzvü olsa da, danışıqlar prosesinə ciddi təsiri yoxdur. Bu səbəblə Çavuşoğlunun açıqlamasının reallıqla əlaqəsi olmadığını düşünürəm. Uşakovdan əvvəl Rusiyanın Ermənistandakı səfiri təkziblə çıxış etdi və həll prosesi ilə yalnız həmsədr ölkələrin məşğul olduğunu bəyan etməklə, Türkiyənin bu məsələyə qarışmasının əleyhinə olduqlarına işarə vurdu.


Hikmət Hacıyev


Şahin Cəfərli

Uşakovun açıqlamasına gəldikdə isə, bu, onu göstərir ki, aprel döyüşlərindən sonra barışdırıcılıq missiyasını tamamilə öz üzərinə götürən Rusiyanın cəhdi iflasa uğrayıb. Məncə, Moskvanın irəli sürdüyü təkliflər Azərbaycan tərəfindən məqbul sayılmayıb və rəsmi Bakının gözləntilərinə uyğun olmayıb. Lavrov açıq mətnlə bildirmişdi ki, Moskva Azərbaycanın Avrasiya İttifaqına və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmasını istəyir. Bu açıqlama o mənaya gəlirdi ki, Azərbaycan həmin inteqrasiya layihələrində iştirak edərsə, münaqişənin həllində onun maraqları nəzərə alınacaq. Yəni Azərbaycan və Ermənistan SSRİ dövründəkinə bənzər şəkildə Moskvanın hegemonluğu altında eyni iqtisadi məkanda və eyni təhlükəsizlik strukturunda yer alsalar, problemin həlli xeyli asanlaşacaqdı. Belə görünür ki, Azərbaycan rəhbərliyi Avrasiya İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olmaq barədə Moskvanın gözləntisinə adekvat cavab verməyib, nəticədə Rusiyanın Qarabağla bağlı Azərbaycan üçün heç də sərfəli olmayan təklifləri ortaya çıxıb".

**Ş.Cəfərlinin sözlərinə görə, danışıqlarda ciddi irəliləyiş əldə olunmamasının və Uşakovun məlum açıqlama ilə çıxış etməsinin digər səbəbi isə Ermənistanın mövqeyi ilə əlaqədardır:** "Sərkisyan rejimi güzəştlərə getmək istəmədi, Rusiya isə bu məsələdə ona ciddi təzyiq etmədi. Çünki Sərkisyanın güzəştləri Ermənistanda daxili siyasi gərginliyin artmasına, hətta çevrilişə və ya inqilaba səbəb ola bilərdi. Bu ehtimalın Rusiyanı qorxutduğunu düşünürəm. Ermənistanda xaosun yaranması Rusiyanın maraqlarına uyğun deyil, çünki xaos durumunda proseslərin necə cərəyan edəcəyini proqnozlaşdırmaq çətindir. Bundan başqa, Sərkisyanı layiqincə əvəz edəcək rusiyayönümlü güclü fiqur tapıb önə çıxarmaq da asan məsələ deyil. Hesab edirəm ki, bu səbəblərə görə Moskva Sərkisyana təzyiq göstərərək onu güzəştlərə vadar etmək fikrindən daşınıb.

Bundan başqa, qlobal geosiyasətdə baş verən son prosesləri də nəzərdən qaçırmayaq. Suriya məsələsində ABŞ-Rusiya əməkdaşlığının dayanması iki böyük dövlət arasında gərginliyi son həddə çatdırıb. Bu gərginliyin Qarabağ münaqişəsinin həlli prosesində ABŞ-Rusiya-Fransa əməkdaşlığına neqativ təsirini istisna etmək olmaz".

❑ **Etibar SEYİDAĞA**

# Türkiyədən Azərbaycana FETÖ siyahısı gəlibmi?

## Azərbaycanda "camaat əməliyyatları" mövzusunda son durum


Fətullah Gülən

**Xəbər verdiyimiz kimi, bir neçə gün əvvəl mediada Türkiyədən Azərbaycana FETÖ üzvü şəxslərin siyahısının göndərilməsi xəbərləri yayıldı. Məlumatda qeyd olunurdu ki, Türkiyə baş nazirinin Azərbaycandakı FETÖ üzvlərinin ifşa olunması ilə bağlı məktubu Türkiyəyə yardım aparan Şeyxülislam Hacı Allahşükür Paşazadə vasitəsilə çatdırılıb. QMİ sədrinin də Türkiyədə olarkən FETÖ şəbəkəsi ilə mübarizəni davam etdirəcəklərini xüsusi vurğu ilə bəyan etməsi bununla bağlı olub.**

Cebhe.info saytının yaydığı məlumata görə, məktubda adı "Hizmət" hərəkatına bağlı olduğu deyilən şəxslərin böyük əksəriyyəti Milli Məclisin deputatlarıdır. Onların sayının kifayət qədər çox olduğu və növbəti seçkilərdə mandatlarını itirəcəkləri qeyd olunur.

Ancaq iki gün əvvəl mətbuata açıqlama verən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** bu məlumatı təkzib edib. Yeri gəlmişkən, Mübariz Qurbanlı da iki gün əvvəl İstanbulda keçirilən beynəlxalq dini konfransda iştirak edib. Komitə sədri deyib ki, bu məlumat ilk dəfə qonşu ölkə mediasında yayılıb və səhihliyi şübhə doğurur.

**Sitat:** "Türkiyədə yüzlərlə media var, yayılan məlumatlar barədə diqqətli olmalıyıq. Bizim üçün Türkiyə rəsmi qurumlarının və rəsmi qəzetlərinin yaydığı məlumatlar əsasdır. FETÖ-çülərin Azərbaycanda uzantıları ola bilər, bununla bağlı işlər gedir. Müəyyən ədəbiyyatlar və disklər yayan adamlar saxlanılıb. Bununla bağlı hüquq-mühafizə orqanları işlərini davam etdirirlər. FETÖ-çülərlə əlaqədar lazımi araşdırma aparıdqdan sonra danışmaq lazımdır. Mən Türkiyənin Azərbaycana siyahı təqdim etməsi barədə bilgiyə malik deyiləm".

Qeyd edək ki, Azərbaycanda FETÖ tərəfdarlarına qarşı əməliyyatların olacağı ilə bağlı məlumatlar hələ üç il əvvəl, Türkiyədə 17-25 dekabr proseslərindən sonra gündəmə gəlib. Hətta o zaman bir sıra vəzifəli şəxslər də bu ittihamla işdən çıxarıldılar. Həmin vaxt Türkiyənin Azərbaycana siyahı göndərdiyi haqda məlumatlar da nə təsdiq, nə də təkzib olunmadı.

İndi isə yenidən siyahı gündəmə gəlib. Üstəlik, məlumdur ki, Türkiyə hakimiyyəti ölkə ərazisində olduğu kimi, xaricdəki "gülən camaatı"na qarşı əməliyyatların aparılmasında israrlıdır. Türkiyə prezidentinin BMT tribunasından dünyaya FETÖ təhlükəsi xəbərdarlığı etməsi, rəsmi şəkildə ABŞ-dan Gülənin tələb edilməsi, Türkiyədə Ali Təhsil Təşkilatının xaricdəki Gülən məktəblərini bitirmiş şəxslərin diplom və attestatlarını tanımaması, bu məktəbləri bitirənlərin Türkiyədən ali məktəbə qəbulunu qadağan etməsi, bundan başqa, Qırğızıstan, eləcə də bir sıra Afrika ölkələrinə Gülən məktəblərini bağlamaqla bağlı tələb göndərməsi Ankaranın niyyətinin ciddi olmasından xəbər verir. Ankara açıq şəkildə Bakıya hələ ki belə bir çağırış etməyibsə də, Azərbaycan daxili işlər nazirinin Ankaraya səfəri zamanı səsləndirdiyi fikirlər, Türkiyə rəsmilərinin Azərbaycan hökumətinin FETÖ-yə qarşı mübarizəsindən məmnunluq doğuran açıqlamaların onu göstərir ki, Bakı ilə bu istiqamətdə danışıqlar olub. Sadəcə, mediaya açıqlanmır.

O da var ki, Ankara rəsmi və qeyri-rəsmi mənbələr vasitəsilə F.Gülən camaatının ən güclü təşkilatlandığı ikinci ölkənin Azərbaycan olduğunu bir neçə dəfə bəyan edib. Eyni zamanda Türkiyə mediası Azərbaycandakı FETÖ qruplaşmasına xüsusi diqqət ayırıb, Bakıya çəkiliş qrupu ezam edib. Bundan çıxış etsək, o zaman Ankaranın Bakıya hansısa siyahı və ya adlar verməsi inandırıcı görünür. Baxmayaraq ki, M.Qurbanlı siyahı söhbətini inkar edir.

Mümkündür ki, M.Qurbanlı həqiqətən də belə bir siyahının mövcudluğundan xəbərsizdir. Yaxud da onunla birbaşa əlaqəsi olmadığı üçün rahat şəkildə iddianı təkzib edir, özü də dolayı yolla, yəni medianın rəsmi olmaması arqumenti ilə. Hər kəsə aydın məsələdir ki, hər nə qədər dini qrup və ya camaat adlandırılsa da, F.Gülən camaatı artıq çox illər öncədən dini icma olmaqdan çıxaraq gizli təşkilat kimi fəaliyyət göstərirdi. Yəni indi necə deyərlər, F.Gülənə qarşı mübarizədə Dini Komitənin və ya başqa bir dini qurumun o qədər də rolu yoxdur və ya ola bilməz. Çünki söhbət dövlətin az qala bütün orqanlarına yerləşmiş gizli şəbəkədən gedir. Yeri gəlmişkən, rəsmi məlumata görə, F.Gülən camaatının Azərbaycanda hətta qeydiyyatdan keçmiş icması belə olmayıb, hansısa məscid və ya dini ibadət evi açmayıb, dini təhsil mərkəzi qurmayıb. Bu camaat daha çox dünyəvi təhsil mərkəzləri (orta məktəb, lisey, universitet, yataqxana və sair - K.R.) quraraq orda öz fəaliyyətlərini həyata keçirməklə tanınıb. Camaatın hansısa dini təbliğatı olubsa da, bu təbliğatlar məscidlərdə və ya dini icmalarda deyil, adları qeyd olunan təhsil mərkəzləri, yataqxana və media qurumlarında aparılıb. Bu mənada Azərbaycanda FETÖ-yə qarşı aparılacaq əməliyyatların məscidlərdə və ya hansısa dini icmada baş verməsi mümkün deyil. Bu iş daha çox hüquq-mühafizə orqanları, təhsil və digər strateji dövlət qurumları vasitəsilə aparılacaq. Bu səbəbdən də indi açıqlamanı dini qurumlardan deyil, daha çox siyasi və hüquq-mühafizə orqanları rəhbərlərindən gözləmək lazımdır. Çünki bir siyahı varsa da o, artıq dini icmalar və ya din xadimləri ilə bağlı deyil, böyük ölçüdə.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

# "Vətəndaşlar son bir ildə öz boğazlarından kəsib, hökuməti saxladılar"

## İlham Şaban: "Yenə də neft sektorunun töhfəsi hesabına hökumət özünü dirçəldir"

**Enerji məsələləri üzrə ekspert, Neft Araşdırmalar Mərkəzinin sədri İlham Şabanın "Yeni Müsavat" qəzetinə müsahibəsini təqdim edirik.**



***- İlham bəy, son 10 ildə ilk dəfə idi ilə neftin qiymətı ilə bağlı bədbin proqnozlarla başladıq. Artıq ilk 9 ay geridə qalıb. Bu müddətdə ölkənin enerji satışından əldə olunan gəlirləri nə qədər azaldı? Nəticələri necə qiymətləndirirsiniz?***

- Neftin ucuzlaşması 2014-cü ildən başlasa da, 2016-cı ildə lap dibə vurdu. Yanvar ayının 20-də "Brent" markalı neft 27 dollar həddinə düşmüşdü. Ondan sonra belə bir göstəriciyə rast gəlməmişik. 2014-cü ilin iyun ayının 7-dən neft ucuzlaşmağa başlayıb. Onda ən maksimal hədd 117 dollar idi. Ancaq 2014-cü ildə ən maksimal hədd mart ayında olmuşdu, o zaman neftin qiyməti 125 dollara çatırdı. Artıq deyə bilərik ki, neftin qiyməti dibdən yuxarıya doğru qalxır. Bu, neft ixrac edən ölkə kimi Azərbaycan üçün pozitiv bir siqnaldır. Hökumət dərk elədi ki, neftin qiyməti yaxın zamanlarda 100 dollar səviyyəsinə çatmayacaq. Ona görə qeyri-neft sektorunda, ümumiyyətlə, iqtisadiyyatda nə isə etmək lazımdır. Biz heç vaxt hökumətin bir ayın içində 3 dəfə iclas keçirdiyini görməmişdik. Bu ilin yanvar ayında hökumət 1 ayda 3 dəfə iclas keçirdi ki, nə isə etsin. Bunun real nəticəsi isə özünü neftdə göstərdi. Hökumətin planına görə, bu il 40,7 milyon ton neft hasil edilməli idi. 2015-ci ildə hasilat 41,69 milyon ton olmuşdu. Yəni hasilat 1 milyon ton aşağı enməli idi. Bu isə o deməkdir ki, hasilat 7,4 milyon barel azalmalı idi. Faktiki olaraq, cari ilin 9 ayı yekunlaşır. Neftin orta ixrac qiyməti 43 dollardır. Maliyyə Nazirliyinin açıqladığı rəqəmə görə, ötən il Azərbaycan neftinin orta ixrac qiyməti 54,31 dollar olub. Yəni ötən ilin ixrac qiymətindən aşağı bir rəqəmdir. Həm hasilat azalıb, həm də neftin qiyməti 12 dollar aşağı düşüb. Ölkənin neft gəlirləri ötən il 7,6 milyard manat olmuşdu. Bu minvalla olsaydı onda Neft Fonduna gələn gəlir heç 40 milyard olmayacaqdı. Bu halda hökumət çox ciddi bir böhrana gedirdi. Ona görə də xarici neft şirkətlərinin, əsasən də BP şirkətinin qarşısında 2016-cı ildə dönüş yaratmaq üçün bir plan qoyuldu. Bu şirkətinin payına Azərbaycan neftinin 75 faizindən artığının hasilatı düşür, "Azəri Çıraq-Günəşli" yatağında neft hasilatını aparır. Bu yataqlardan gələn gəlir Dövlət Neft Fondunun gəlirlərinin 90 faizdən çoxunu təşkil edir. Bu plan ondan ibarət idi ki, BP şirkəti hər il hasil etdiyi səmt qazının təxminən 3 milyard kubmetrini Azərbaycan tərəfinə verirdi. İndi onu yarıbayarı azaldır və əvəzində onu yataqlarda neft quyularına vurur və hasilatı artırır.

***- Yəni qazla müqayisədə hökumət neftə üstünlük verdi?***

- Neft istənilən halda qazdan bahadır, neft bazarda satılır, gəlir gətirir. Neftin gəlir gətirməsi həm şirkətlərin, həm də dövlətin marağındadır. 2011-ci ildən başlayaraq hasilat aşağı düşməyə başlamışdı. Bu ilin birinci yarısında "Azəri-Çıraq-Günəşli" blokunda neft hasilatının 300 min ton artmasına nail olundu. Hökumət maraqlı bir addım atdı. O da ondan ibarət idi ki, enerji layihələri Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşsin. Hökumət bu layihələrə xarici maliyyə mənbələri cəlb etdi, Neft Fondu burada qənaət etmiş oldu. Neft Fondu həmçinin büdcəyə transferlərini azaltmış oldu. Neft Fondunun 9 ayın yekunlarına dair hesabatından da məlum oldu ki, cari il üçün DNF-nin büdcədə nəzərdə tutulmuş öhdəliyi 7 milyard 615 milyon manat olduğu halda, 9 ayın nəticələrinə görə bunun 43 faizi icra edilib. Yəni bu, öhdəliyin heç yarısı da deyil. Ümumilikdə isə Dövlət Neft Fondunun əsas yükü məhz dövlət büdcəsinə transferlərdir. Ona görə də Neft Fondu həm vəsaitlərinə qənaət edə bildi, həm də hasilat artdı. Hava şəraiti də bizə imkan verdi ki, elektrik enerjisinin istehsalı aşağı düşdü. Qış ayları mülayim keçdi, yay nisbətən sərin oldu, payız da normal keçir. O baxımdan qaza və elektrikə ciddi şəkildə qənaət oldu, daxili bazarda qaza tələbat o qədər böyük deyil.

Yenə neft sektorunun töhfəsi hesabına hökumət özünü dirçəldir. Cari ilin sonunda da gözləntilər ondan ibarətdir ki, Neft Fondundan transferlərə qənaət olunacaq. Bundan əlavə, neftin qiyməti də qalxır. Bu isə onu deməyə əsas verir ki, növbəti rübdə neftin qiyməti ən azı 20 faiz artmış olacaq. Belə olan halda, Neft Fonduna gələn gəlirlər də artacaq, ümumi gəlir 5 milyard dollar civarında olacaq. İlin sonuna Neft Fondunun aktivləri 34 milyard dollara yaxınlaşacaq. Ancaq ilin əvvəlində bu, 33 milyarddan bir qədər artıq idi. İlin sonunda isə fondun gəlirləri azalmadı.

***- İlham bəy, yəni hökumətin siyasətini uğurlu hesab edirsiniz?***

- Xeyr, bunu vurğulamaq lazımdır ki, bu qənaət və artım hökumətin qeyri-neft sektorundakı uğurları hesabına olmadı. Bu hələ ki büdcəyə edilən transferlərin azalması hesabına baş verdi. Hökumət etiraf etməsə də bu qənaət birbaşa sosial layihələrə xərclərin azaldılması hesabına oldu. Vətəndaşlar son bir ildə bahalaşmadan əziyyət çəkdilər, öz boğazlarından kəsib hökuməti saxladılar. Hökumət insanlara iqtisadi böhranı hiss etməmək üçün yardım etmədi. Heç bir təhlükəsizlik kəməri olmadı və insanlar böhrandan sığortalanmadı. Əksinə, insanlar hökumətin dadına çatdı. Hökumət bunu hər zaman yadında saxlamalıdır. Manat dollara qarşı 1.59-a düşübsə, burada hər bir Azərbaycan vətəndaşının xidməti var, hökumətin xidməti yoxdur. Hökumət vaxtında tədbir görsəydi, ölkədən 5 milyard dollar vəsait çıxmazdı.

***- Gələn il üçün neftin qiymətini necə proqnozlaşdırırsınız? Büdcədə neftin qiymətinin 40 dollardan götürülməsinə münasibətiniz necədir?***

- Bu, normal yanaşmadır. Çünki gələn il üçün həm beynəlxalq enerji agentliklərinin, həm maliyyə institutlarının proqnozları 50 dollardan yuxarıdır. Neft gələn il pessimist ssenariyə görə, 45 dollar, optimist ssenariyə görə 53-55 dollar arasında olacaq. Hökumət isə qiyməti ən pis ssenari üzrə götürüb. Reallıq isə onu göstərir ki, 50 dollardan aşağı olmayacaq. Belə bir şəraitdə hökumət 25 faiz artıq gəlir götürür. Bunun nəticəsində 2017-ci ildə hökumətin manevr imkanları artır. Bu zaman artıq həm cəmiyyətlə bölüşür, həm xərclərini artırır və daha çevik siyasət yürütmək imkanı qazanır.

***- OPEK ölkələri neftin ucuzlaşmasının qarşısını almaq üçün hasilatın azaldılması məsələsini gündəmə gətirirlər. Sizcə, gələn il bu kimi addımlar neftin kəskin bahalaşmasına səbəb ola bilərmi?***

- OPEK və OPEK-ə daxil olmayan digər ölkələr sentyabrdan çox yaxşı addımlar atırlar. Mən bu addımları bazarın qızdırılması kimi dəyərləndirirəm. Sentyabrın 28-də Əlcəzairdə olan razılaşmanın heç bir hüquqi öhdəliyi olmasa da bazara müsbət təsir göstərdi, nəticədə 45 dollar ətrafında olan qiymətlər 50 dolları keçdi. İstanbul sammiti çərçivəsində də bir görüş oldu və Rusiyanın energetika naziri açıqlama verdi ki, növbəti görüş oktyabrın 29-da olacaq. Vyana toplantısına qədər bir neçə görüş olacaq və son görüşdə bu öhdəliklər hüquqi əsasını tapacaq. Bu görüşlər bazara impuls vermək, bazarı daim diqqətdə saxlamaq məqsədi daşıyır.

***- Gələn il Azərbaycanı qaz layihələrindən nə qədər gəlir gözləyir?***

- Qaz layihəsi deyərkən "Şahdəniz" layihəsi nəzərdə tutulur. Biz 2007-ci ildən bu layihədən gəlir götürməyə başlamışıq. İndiyədək ən yaxşı halda 2013-cü ildə 550 milyon dollar mənfəət əldə etmişik. Sonradan isə getdikcə azalıb. Azalmanın səbəbi isə odur ki, əldə olunan mənfəət "Şahdəniz 2" layihəsinə yönəldilib. Bu il və gələn il də "Şahdəniz 2" layihəsinin reallaşması ilə əlaqədar olaraq Azərbaycanın mənfəəti minimum olacaq. Cari ilin birinci yarısında Azərbaycan "Şahdəniz" layihəsindən cəmi 64 milyon dollar mənfəət əldə edib. Ancaq bunun bu qədər aşağı səviyyəyə düşməsinin bir səbəbi də var. Azərbaycan "Şahdəniz"dən təkcə pul şəklində mənfəət əldə etmir. Həm də oradan daxili bazar üçün qaz alır. OPEK ölkələri və digər hasilatçı ölkələrin enerji nazirləri, hökumət başçıları pozitiv informasiyalar səsləndirirlər. Bu informasiyalar da neftin qiymətini müəyyən qədər qaldırır. Lakin OPEK-in sentyabrda açıqlanan hesabatı göstərdi ki, hasilat 33, 64 milyon bareldir. Bazarda bu qədər neft varsa, qiymət necə arta bilər? Amerikada neft buruqlarının sayı artır, hasilat artır. OPEK-də hasilat artır, Rusiya 11 milyon barelə çatır. Neftin qiyməti isə avqust ayında 42 dollar idi, indi 52 dollardır. Yəni bazarı diqqətdə saxlayan onu bilər ki, neftin qiyməti tələb-təklif əsasında formalaşmır, bu, sırf siyasətdir, bazarın süni yolla qızdırılmasıdır. Bunu bacarırlarsa, onlara yalnız "sağ ol " düşür.

***- "Cənub Qaz Dəhlizi" layihəsinin perspektivini necə görürsünüz? Sizcə, bu layihə qoyulan yatırımlar özünü doğruldacaqmı?***

- "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı iki cür yanaşma var. Bunun biri sırf Azərbaycan xüsusiyyəti ilə bağlıdır. Biz bazarda hər zaman ucuz mal axtarırıq. Paradoksal hal odur ki, hökumət hansısa layihənin əhəmiyyətini artırmaq üçün dəyərini çox göstərməyə çalışır. Məsələn, "Cənub Qaz Dəhlizi" 45 milyard dollarlıq layihə deyil, heç 40 milyard da deyil. Hazırda o layihənin dəyəri 39 milyard dollardır. İnsanlar isə bahalı layihəni istəmirlər. Lakin əsas məqam odur ki, "Cənub Qaz Dəhlizi" layihəsini "Şahdəniz" layihəsindən ayırmaq lazımdır. Biri qazı hasil edir, digəri isə nəql edir. Bunlar bir-birindən ayrıdır, hərəsinin ayrı mühasibatlığı var. "Şahdəniz" layihəsində qaz çıxarılır, müqavilə bağlanır və "Cənub Qaz Dəhlizi" layihəsi ilə nəql edilir. Alıcı isə Türkiyə və Avropadır. Qaz satılır və hərə öz payını alır. Söhbət Azərbaycandan və burada iştirak edən şirkətlərdən BP-dən, TAP və TANAP-da pay sahibi olan şirkətlərdən gedir. Həmin şirkətlərin həm də nəqletmədən qazancı olacaq. Yəni ixracat prosesində qazanc həm qazdan gəlir, həm də nəqletmədən.



❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar Məğrur MƏRDİNDİR

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Azərbaycanın işğal altındakı 5 rayonunun azad edilməsi ilə bağlı anlaşma əldə olunduğu haqda açıqlaması bir qədər açıq səmada şimşək effekti yaratdı. Çünki nazirin bəyanatı Dağlıq Qarabağa dair danışıqların, faktiki, dayandığı dönəmə təsadüf edir. Bu üzdən siyasi müşahidəçilərdə fərqli fikirlər doğurdu.**






# Vasitəçilərin ikili standart siyasətini dəyişmək zamanı

Qarabağa sülhü yalnız ədalətli həll gətirəcək; Moskva isə hərbi paradın ardınca İrəvanda müdafiə sərgisi təşkil edib - Bakıya mesaj? Rusiya səfiri: “Başqa ölkələrin Qarabağ məsələsinə qarışmağa haqqı yoxdur”; **politoloq:** “Nə sülh, nə müharibə vəziyyəti Ermənistanın sonu olacaq...”

Məsələn, **politoloq Elxan Şahinoğluna** görə, əgər Rusiya Çavuşoğlunun dediyi kimi, Azərbaycanın işğal altındakı 5 rayonunun boşaldılmasını dəstəkləyirsə, onda niyə bu məsələnin həllini yubadır və Kreml rəsmi İrəvana təzyiq etmir? “Məncə, vəziyyət bir qədər fərqlidir”, - deyə o qeyd edib.

Rusiyalı diplomatların 5 rayonun azad olunması məsələsi ilə bağlı Mövlud Çavuşoğlu ilə fikir mübadiləsi apardığını istisna etməyən siyasi şərhçi razılaşmanın indiyə qədər baş tutmamasının səbəblərinə də toxunub: “Prezident İlham Əliyev Nazirlər Kabinetinin son toplantısında böyük dövlətlərin Dağlıq Qarabağın ”müstəqilliyinin" tanınması məqsədilə rəsmi Bakıya təzyiq etdiyini açıqladı. Demək ki, Rusiya 5 rayonun qeyd-şərtsiz azad olunmasına razı deyil, bunun əvəzində Dağlıq Qarabağda referendumun keçirilməsini istəyir. Bu isə Azərbaycanın maraqlarına ziddir".

*****

**Türkiyə XİN başçısının açıqlamasına həmçinin Rusiyadan reaksiyalar özünü çox gözlətməyib.** “Moskva Qarabağ münaqişəsinin yaxın gələcəkdə həll oluna biləcəyini düşünmür, amma mübahisənin sona çatdırılması üçün səylərini əsirgəməyəcək”. Bunu Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib. “Dağlıq Qarabağ münaqişəsinin yaxın gələcəkdə həll oluna biləcəyi məsələsində böyük nikbinlik olduğunu deməzdim. Ancaq biz tərəfdaşlarımızla əməkdaşlıq şəklində Bakı və İrəvanla işləməyə davam edəcəyik” - Uşakov vurğulayıb.

**“Rusiya prezidentinin köməkçisi Yuri Uşakovun Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar verdiyi açıqlama təəccüb və təəssüf doğurur”. Bunu isə Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib (APA). H.Hacıyev qeyd edib ki, Uşakov tərəfindən səsləndirilən bu açıqlama prezidentlərin Vyana və Peterburq görüşlərinin ruhuna və Minsk Qrupu həmsədrlərinin prezidentlər səviyyəsində status-kvonun qəbuledilməzliyi və qeyri-davamlılığı haqqında dəfələrlə verdikləri bəyanatlara ziddir.**

“Bu açıqlama Rusiyanın xarici işlər naziri Sergey Lavrovun regiona intensiv səfərləri əsnasında münaqişənin həlli ilə əlaqədar aparılmış detallı müzakirələrə də uyğun gəlmir. Azərbaycan dəfələrlə bəyan edib ki, Vyana və Sankt-Peterburq görüşlərinin ruhuna uyğun olaraq Ermənistan-Azərbaycan münaqişəsinin mərhələli həlli üzrə substantiv danışıqların tərəfdarıdır. Substantiv danışıqlar qəbuledilməz və qeyri-davamlı olan status-kvonun dəyişdirilməsi və işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasını təmin etməlidir. Azərbaycan suveren ərazilərinin Ermənistanın hərbi işğalı altında qalması qəbuledilməzdir. Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini təmin edəcək”, - deyə o bildirib.

*****

Bir daha qeyd edək ki, Uşakov Rusiyanın, Kremlin rəsmisidir. Onun açıqlaması təbii ki, nikbinlikdən xəbər vermir. Bunun bir səbəbi də Moskvanın öz satelliti - işğalçı Ermənistanın indiki mərhələdə konstruktiv mövqeyə gətirmək istəməməsi ilə əlaqələndirilir. Əksinə, son vaxtlar Rusiya ilə Ermənistan arasında hərbi sahədə yaxınlaşma güclənib. Söhbət təkcə işğalçı tərəfə “İsgəndər” operativ-taktiki raket komplekslərinin ötürülməsindən getmir.

“Rusiya ilə Ermənistan arasında hərbi-texniki əməkdaşlıq davam edir. Mən düşünürəm ki, bizə əməkdaşlığın yeni yollarını inkişaf etdirmək lazımdır”. Bu sözləri Rusiyanın Ermənistandakı səfiri İvan Volınkin İrəvanda ilk dəfə açılan silah və müdafiə sərgisində çıxışı zamanı deyib.

Göründüyü kimi, Rusiya Azərbaycandan geri qalmamaq üçün Ermənistana hərbi sərgi açmağa da kömək edir - təbii ki, ötən ay İrəvanda keçirilən hərbi paradın ardınca bu da Bakıya növbəti “əzələ nümayişi” cəhdidir - Rusiyanın əli ilə.

Sərgidə nümayiş etdirilən silahlar haqda danışan səfir daha sonra deyib ki, “Ermənistanda istehsalçılar çoxdur və bu da Ermənistan iqtisadiyyatı üçün mühüm stimuldur”. Diplomat belə sərginin bundan sonra İrəvanda hər il keçiriləcəyini ümid etdiyini də ifadə edib. O, həmçinin iki ölkə arasında hərbi-texniki əməkdaşlığa dair sazişlərin bundan sonra da imzalanacağını bildirib.

**Lakin diplomat jurnalistlərin Rusiya ilə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlığı və bununla bağlı Azərbaycan tərəfinin bəzi açıqlamaları ilə bağlı suallardan yayınmağa çalışıb. Yalnız “Ola bilsin Azərbaycan tərəfinə nə isə məlumdur, ona görə də belə bəyanatlar verirlər, ancaq biz bu barədə heç nə bilmirik” deməklə kifayətlənib. Səfir sonda onu da deyib ki, “Qarabağ konfliktinin nizamlanması yalnız Minsk Qrupu çərçivəsində mümkündür və başqa ölkələrin bu məsələyə qarışmağa haqqı yoxdur”.**

*****

Minsk Qrupu isə əfsuslar olsun ki, 24 ildir münaqişənin həllində irəliləyişə nail ola bilmir. Görəsən, daha nə qədər vaxt keçməlidir ki, nəticə olsun? Aprel döyüşləri göstərdi ki, dalan situasiyası çox uzun da sürə bilməz, əks halda böyük müharibə qapını kəsdirəcək. Lakin bəzi siyasi ekspertlər nikbinliyi itirmir. Onlar xüsusən də Türkiyə-Rusiya əlaqələrinin dərinləşməsinin, Ankara ilə Moskva arasında siyasi anlaşmaların artmasının Dağlıq Qarabağ ixtilafının da yoluna qoyulmasına gec-tez müsbət təsir göstərəcəyi qənaətindədirlər.

“Türkiyənin Cənubi Qafqazda iki marağı var: birinci, Dağlıq Qarabağ probleminin ədalətli həlli, ikincisi isə Ermənistanla münasibətlərin qaydaya salınması və ən sonda ermənilərin antitürk fəaliyyətlərini iflasa uğratmaq”. **Sabiq dövlət müşaviri Qabil Hüseynli** bu fikirdədir (axar.az). Politoloqa görə, sürətlə güclənən Rusiya-Türkiyə münasibətlərinin Ermənistanı qorxuya salıb: “Üstəlik, bu yaxınlaşma Rusiya-Azərbaycan münasibətlərinin daha yüksək səviyyəyə qalxacağından xəbər verir. Düzdür, hər dövlətin öz strateji maraqları var. Xüsusilə də Rusiya bu maraqlarını qabartmağa daha çox meyllidir. Moskva ilə Ankara arasındakı isti münasibətlər təkcə ”Türk axını" layihəsi ilə bitmir, bu proses özlüyündə Qarabağ məsələsinə də sirayət edir və bunun işartılarını indidən görmək mümkündür. Bu kontekstdə əlbəttə ki, Türkiyənin Ermənistanla münasibətlərini yaxşılaşdırması məsələsi də gündəmdə dayanır. Türkiyənin bir marağı Qarabağ probleminin ədalətli həllidirsə, digəri Ermənistanla münasibətlərin qaydaya salınması və ən sonda ermənilərin antitürk fəaliyyətlərini iflasa uğratmaqdır".

**Ekspert əmindir ki, İstanbulda Ərdoğanla Putin arasında 5 rayon məsələsi yenidən gündəmə gəlib:** “Bu, türk liderin məhz Sankt-Peterburqda Moskvadan Qarabağ tələbinin davamıdır. Ermənistan isə sadəcə, aradakı fasilədən öz xeyrinə istifadə etməyə çalışdı. İndi isə 5 rayon məsələsinin yenidən gündəmə gəlməsi kifayət qədər müsbət hadisədir. Bu, Ermənistanın planlarını heçə endirəcək və bu ölkədə daxili proseslərin yenidən qızışmasına rəvac verəcək. Çünki ermənilərin danışıqlar prosesinin dayanmasına dair ümidləri puça çıxır. Rusiya məsələnin həlli istiqamətində çalışmaq niyyətindədir. Çavuşoğlunun son açıqlaması nəinki danışıqlar prosesinin aktivləşəcəyindən xəbər verir, həm də real nəticələr əldə edilməsinə ümid yaradır”.

**Ermənistanın dövlət borcunun sürətlə artdığını vurğulayan politoloq 5 rayonun geri qaytarılmasının İrəvan üçün ciddi perspektivlər vəd etdiyini də deyib:** “Ermənistanda konstruktiv düşünməyi bacaran insanlar varsa, çox gec olmadan bilməlidirlər ki, ”nə sülh, nə müharibə" vəziyyəti bu ölkənin sonu olacaq. Çünki Azərbaycan çox səmərəli fəaliyyətə başlayacaq. 5 rayon məsələsinin hansı danışıqlar mərhələsindən keçməsi isə yaxın günlərin aktual mövzusudur və bu istiqamətdə diplomatik fəaliyyətlər artacaq".

**Q.Hüseynli aprel hadisələrindən sonra Qarabağla bağlı müzakirələrdə az qala Rusiya ilə rəqabətə girən Qərbin hazırkı susqunluğuna da aydınlıq gətirib:** “Düzdür, AŞPA Azərbaycanın ərazi bütövlüyü haqqında bəyanat verdi və bu müsbət haldır. Ancaq məsələ ondadır ki, Azərbaycanın probleminə Gürcüstan, Moldova və digərləri kimi aydın və birmənalı formada yanaşma yoxdur. Səbəb də Qərbin ikili standartlarıdır. Hətta bəzi Qərb dövlətləri Azərbaycanın ərazi bütövlüyü məsələsində gah nala, gah da mıxa vururlar. Bu susqunluğun səbəbləri isə tam aydındır”.

*****

Qarabağ düyününün açılmasını əngəlləyən əsas faktor da əslində elə vasitəçi güclərin ikili standart siyasətidir. Lakin bu siyasətin bölgəyə sülh və əmin-amanlıq, iqtisadi tərəqqi və inteqrasiya gətirmədiyi ortadadır. Siyasəti dəyişmək zamanı deyilmi? Şübhəsiz ki, bu işdə rəsmi Bakı da onun payına düşən töhfəni verməlidir - ölkənin hərbi qüdrətini, dost-müttəfiqlərinin sayını artırmaqla, onun beynəlxalq imicini möhkəmlətməklə...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

# Milli Məclis mühüm qərarlar qəbul etdi

## Dövlət qeydiyyatından keçməmiş dərmanlara görə cəzalar sərtləşdirildi; korrupsiya faktı barədə məlumat verən şəxsin təhlükəsizliyi qorunacaq



**Oktyabrın 14-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. Əvvəlcə birinci vitse-spiker Ziyafət Əsgərov gündəlikdəki ilk məsələ - "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna dəyişikliklər barədə məlumat verdi.**

Vitse-spiker dedi ki, dəyişikliklər korrupsiya haqqında müvafiq dövlət orqanlarına məlumat verilməsi və bu barədə məlumat verən şəxslərin təhlükəsizliyinin qorunması ilə əlaqədardır. "Bu məlumatın konfidensiallığı saxlanılır və yayıla bilməz. Ancaq əgər həmin şəxs istərsə, bu barədə məlumat yayıla bilər" - Z.Əsgərov əlavə etdi. Qanuna edilən dəyişikliklərə əsasən, korrupsiya faktı barədə məlumat verən şəxsin təhlükəsizliyi qorunacaq. Ancaq korrupsiya faktları ilə bağlı məlumat verən şəxsin bu məlumatları özünün şəxsi məqsədləri ilə əlaqədar verdiyi müəyyən olunsa, onda o şəxsin təhlükəsizliyi dövlət tərəfindən müdafiə olunmayacaq.

**Deputat Elmira Axundova dedi ki, hazırda insanlar korrupsiya faktı ilə rastlaşdıqda birbaşa Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə məlumat vermək hüququna malikdir:** "Ancaq dəyişikliklərdən belə aydın olur ki, həmin şəxslər əvvəl struktur bölməyə, qane etməsə, idarəyə müraciət edəcək. Bu da faktlarla bağlı operativ şəkildə tədbir görməyi mümkünsüz edir. Bilmək istəyirəm, bununla bürokratik əngəllər yaranmayacaqmı? Yaxud həmin qurumların rəhbərləri korrupsiya faktlarını ört-basdır etməyəcəkmi?"

**Deputat Qüdrət Həsənquliyev dedi ki, qanun layihəsində "müdafiə etməyəcəyik" ifadəsinə ehtiyac yoxdur:** "Bir çox orqanlar bu faktların kənara çıxmasına maraqlı olmayacaq. Mən inanmıram ki, müəssisədə aşkar olunan korrupsiya faktları barədə məlumat verən şəxsin kimliyi məxfi qalsın. Ona görə də bununla bağlı maddəyə ehtiyac yoxdur". Q.Həsənquliyev dedi ki, idarə və müəssisələrdə yeni strukturun yaradılması xərclərin artırılması baxımından mövcud vəziyyətə uyğun deyil.

Deputat Fərəc Quliyev Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin prezidentə tabe etdirilməsini zəruri saydı.

**Deputat Siyavuş Novruzov dedi ki, dünyanın bir sıra ölkələrində korrupsiya halları ilə bağlı xəbər verməyənlərlə bağlı məsuliyyət nəzərdə tutulur:** "Olur ki, bəziləri yalan məlumat verir. Biri icra başçısı, ya idarə, müəssisə rəhbəri ilə yola getmir, yalan məlumat ötürür. Məsuliyyət nəzərdə tutulmalıdır ki, keçmişdəki kimi BMT-dən üzü bəri yazmasınlar. O zaman anonim məktublar yazırdılar ki, kimdənsə nəsə qopartsın. Həm anonimlik məsələsi ortadan qalxmalıdır, həm də məlumat verən şəxsin təhlükəsizliyi tam təmin olunsun. Hətta məsuliyyət məsələsi ağırlaşdırılmalıdır ki, məlumat verən şəxsin təhlükəsizliyi qorunsun".

**Deputat Çingiz Qənizadə ölkə prezidentinin 2012-ci ildə korrupsiyaya qarşı mübarizə istiqamətində ciddi addımlar atıldığını təqdirəlayiq hal adlandırdı.** "Mən bu qanunun qəbulunun əleyhinə deyiləm, işləyib-işləməyəcəyini gələcək göstərəcək"-deyən Ç.Qənizadə bəzi məsələlərə aydınlıq gətirilməsini istədi. Dedi ki, verilən məlumat əsasında araşdırma aparan şəxsin hansı ixtisasın sahibi olması önəmlidir: "Həmin şəxs araşdırıb dəqiqləşdirə biləcəkmi ki, bu, rüşvətdir, yoxsa korrupsiyadır".

Qanun layihəsi barədə sualları cavablandıran Z.Əsgərov dedi ki, qanuna əsasən anonim şikayətlərə baxılmır. Bundan sonra dəyişikliklər təsdiqləndi.

İclasda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda dəyişiklik edilməsi müzakirə olundu.

**Deputat Fərəc Quliyev tək övladların ya hərbi xidmətdən azad edilməsini, ya da arxa cəbhədə qulluq etməsini təklif etdi. Deputat Tahir Rzayev dedi ki, şəhid ailələrinə qayğı, diqqət ancaq dövlətin vəzifəsi olmamalıdır:** "Hər bir imkanlı iş adamı, sahibkar şəhid ailələrinə qayğı göstərməlidir".

**Deputat Tahir Kərimli dövlət müstəqilliyinin 25 illiyi münasibətilə xalqı təbrik etdi. Bildirdi ki, Müstəqillik Aktına səs verən deputat olaraq səsləndirdiyi fikirlərə görə sosial şəbəkələrdə ünvanına çoxsaylı qınaqlar səslənir:** "Ən böyük arzumuz odur ki, bütün problemlər həll olunsun və bizə qarşı qınaqlara da son qoyulsun".

**T.Kərimli şəhid ailələrinin durumundan bəhs etdi:** "Mən özüm də şəhid dayısıyam, bir bacım oğlu şəhid olub, digər bacım oğlu da müharibə əlilidir, ona görə də vəziyyət mənə yaxşı tanışdır. Elə şəhid ailələri var ki, 18 ildir mənzil növbəsində dayanıb. Bu insanların mənzillə təmin olunması üçün 272 min 550 min manat vəsait lazımdır. Ancaq indiyədək cəmi 40 milyon pul ayrılıb. Bu iş də 2018-ci ildə başa çatmalıdır. Prezidentin sərəncamı yerinə yetirilməyəcək hala düşüb. Deмirəm ki, kimlərsə bilə-bilə prezidentin sərəncamını pozur, ola bilsin ki, yaddan çıxıb".

**Deputat Əflatun Amaşov** dedi ki, şəhid olan şəxslərə görə ayrılan müavinət çox azdır və bu vəsait artırılmalıdır.

**Aydın Mirzəzadə dedi ki, ola bilsin nə vaxtsa şəhid ailələrinə verilən 10 min manatlıq müavinət böyük pul idi, ancaq bu gün bu, elə də böyük vəsait deyil:** "Ona görə də şəhid ailələrinə verilən müavinəti 10 dəfə artırıb 100 min manata çatdırmaq lazımdır. Bizim il ərzində şəhidimiz çox olmur. Ona görə də dövlət üçün, müstəqilliyimiz, ərazi bütövlüyümüz üçün canını qoymuş insanlarımıza dəyər verməliyik. Xahiş edirəm həmkarlarımız da bu təklifi dəstəkləsin və hökumət də büdcə müzakirələrinə bu təkliflə gəlsin".

**Adil Əliyev** aprel ayında çoxsaylı şəhidlər verdiyimizi, ancaq şəhid ailələrinin heç bir əziyyət çəkmədiyini dedi. Bununla belə, o əlavə etdi ki, şəhidlərə görə verilən müavinətlər narazılıq doğurur. Həmçinin bəzi rayon icra hakimiyyəti rəhbərləri şəhid aillərinə əziyyət verir, hətta onları qəbul etmirlər. Ona görə də şəhid ailələrinə bütün həyatı boyu qayğı göstərilməlidir.

**Deputat Sədaqət Vəliyeva** da bəzi rəhbər şəxslərin şəhidlərin adının əbədiləşdirilməsi ilə bağlı laqeydlik göstərməsindən danışdı və belə hallara etiraz etdi.

**Deputat Musa Qasımlı** təklif olunan dəyişiklikləri təqdir etdi və mətbuatda geniş təbliğ olunmasını zəruri saydı.

**Deputat Elman Məmmədov bəzi anlaşılmazlığın olduğunu bildirdi:** "Belə çıxır ki, şəhid övladı əgər təhsil alırsa, 23 yaşına qədər şəhid övladı statusuna layiq görülür, təhsil almırsa, 18 yaşına qədər bu status verilir. Bu, düzgün deyil, o şəhid balasıdır. Şəhid övladı təkcə dövlət ali məktəblərində yox, bütün təhsil müəssisələrində təhsil haqqından azad olunmalıdır. Bizim bu qanunlara görə artıq şəhid ailəsi statusunu itiriblər, ona görə də həmişə bu ailələr narazıdır".

**Deputat Siyavuş Novruzov müharibə veteranları ilə bağlı dəqiqləşdirmə aparılmasını istədi:** "Elələri var, döyüşüb, amma veteran vəsiqəsi ala bilmir, amma eləsi də var ki, heç döyüş bölgəsinə yaxınlaşmayıb, veteran kimi imtiyazlara sahibdir. Bu istiqamətdə dəqiqləşmə olmalıdır ki, hər kəs haqqını ala bilsin".

**Deputat Fuad Muradov** Xocalıdan olan, ata-anası olmayan 26 gənclə bağlı gördüyü işlərə görə Heydər Əliyev Fonduna təşəkkür etdi. Əlavə etdi ki, bu gənclərlə bağlı növbəti addımlara, onların statusu ilə bağlı təşəbbüsə ehtiyac var.

Prezidentin təqdimatı ilə İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərə görə isə Azərbaycanda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı məsuliyyət şərtləri genişləndirilir, dərman vasitələrinin qeydiyyatına nəzarət edən məmurlara məsuliyyət yaradılır və yeni cəzalar tətbiq olunmaqla sanksiyalar sərtləşdiriləcək.

Dəyişiklik layihəsi ilə bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli verərək bildirdi ki, İnzibati Xətalar Məcəlləsinin 221-ci (Dərman vasitələrinin qanunsuz dövriyyəsi) maddəsi tamamilə dəyişdirilir, bəndlər əlavə edilir. 1-ci bəndə əsasən, bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" qanuna uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, bu əməllər az miqdarda törədildikdə, inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər 1500 manatdan 2000 manata qədər, hüquqi şəxslər isə 5000 manatdan 7000 manata qədər cərimələnəcək.

Maddənin hazırda qüvvədə olan variantında isə bənzər hallara görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə onun dəyərinin səksən faizindən yüz faizinədək məbləğdə cəriməsi nəzərdə tutulurdu. Layihə səsverməyə çıxarılaraq qəbul edildi.

"Bəzi dərmanlar gecə-gündüz reklam olunur. İnsanlar reklamın təsiri altına düşərək bu dərmanlardan mütəmadi istifadə edir. Buna görə də bu və ya digər xəstəliyin müalicəsi ya çətinləşir, ya da ümumiyyətlə, mümkün olmur". Bunu deputat Gövhər Baxışlıyeva söylədi.

Spiker isə dedi ki, dərman vasitələrinin reklamı reklam haqqında qanunun predmetidir və bu məsələyə gələcəkdə baxmaq olar. O.Əsədov əlavə etdi ki, Milli Məclisdə antidopinq haqqında qanun hazırlanır və yaxın vaxtlarda müzakirəyə çıxarılacaq.

İclasda Azərbaycanda vətənin müdafiəsində şücaət və fədakarlıq göstərməklə fərqlənən şəxslər üçün "Şücaətə görə" medalı da təsis edildi.

"Şücaətə görə" medalının Əsasnaməsinə görə, vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən fədakarlıq və şücaət göstərən hərbi qulluqçular və vəzifə borcunu yerinə yetirən digər şəxslər bu medalla təltif ediləcək. Medalın üzərində "Azərbaycan uğrunda" sözləri həkk edilib. Medal müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif ediləcək.

**Elmira Axundova çıxış edərək dedi ki, son zamanlar xoşagəlməz tendensiya əmələ gəlib.** "Dövlət himninin, Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözlərinin zəng əvəzinə telefonlara qoyulmasına şahid oluruq. Həmçinin Heydər Əliyevin şəkli avtomobillərin arxa şüşələrinə vurulur. Çox xahiş edirəm ki, Heydər Əliyevin imzalarını maşının kapot, qapı və şüşəsindən yığışdıraq! Mənim Heydər Əliyevə həmişə böyük hörmətim olub. Onun xatirəsini əziz tuturam. Amma mən nə onun səsini telefonuma yazdıracağam, nə də maşınımın kapotuna imzasını yazacağam. Xahiş edirəm müvafiq orqanlar bu məsələ ilə bağlı ciddi tədbir görsünlər"-deyə, xanım deputat bildirdi.

**YAP-çı deputat Siyavuş Novruzov isə Elmira Axundovanın çıxışına münasibət bildirdi. Mərhum prezident Heydər Əliyevin şəkli və səsi ilə bağlı xanım deputatın dediklərinə reaksiya verən S.Novruzov bunları bildirdi:** "Bəli, Azərbaycan milli valyutasının üzərində ümummilli liderin şəkli olmalıdır. Bir çox ölkələrdə, o cümlədən Türkiyədə bu, var. İngiltərə kraliçalarının hər birinin adına pul var və Avstraliyadan Yeni Zelandiyaya qədər işləyir. Düzdür, mən razı deyiləm ki, Heydər Əliyevin şəklini kimsə maşının kapotuna vursun. Amma kimsə sinəsində, ürəyinin başında gəzdirmək istəyirsə, ona heç kim qadağa qoya bilməz. Ümummilli liderin adı hər yerdə olmalıdır".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

# Dövlət qurumları qışa hazırdırmı...

**Havalar günbəgün soyuyur və artıq qış mövsümünə doğru gedirik. İnsanları düşündürən məsələlərdən biri də kommunal xidmət göstərən qurumların qışa hazırlığı məsələsidir.**

Bu qurumların qışa hazırlığının hansı səviyyədə olduğunu öyrənmək üçün onlarla əlaqə saxladıq.

**“Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev qışa tam hazır olduqlarını dedi:** “Mən çox böyük qürur hissi ilə demək istəyirəm ki, ”Azərişıq" qış mövsümünə tam hazırdır. İstər yay, istər yaz, istər payız, istərsə də qış olsun, biz heç bir fəsilə fərq qoymadan əsas missiyamıza - abonentlərimizin 24 saat işıqla təmin olunmasına tam hazırıq. Keyfiyyətli enerji təchizatı ilə yüksək səviyyədə qışa da hazırlaşmışıq. Hesab edirəm ki, bu qış əvvəlki qışlardan fərqli olacaq. Çünki ildən-ilə apardığımız yenidənqurma işləri, təmir tikinti işləri, yeni inşa etdiyimiz yarım stansiyalar sayəsində hətta ən ucqar yerlər, bir sözlə, hər bir ərazi elektrik enerjisi ilə təchiz olunacaq. Yəni bizim hazırlığımız yüksək səviyyədədir".



**Tanrıverdi Mustafayev:** “Keyfiyyətli enerji təchizatı ilə yüksək səviyyədə qışa da hazırlaşmışıq”



**Anar Cəbrayıllı:** “Şaxtalı havalarda su təchizatı ilə bağlı müəyyən problemlər ola bilər”



**İbrahim Kərbəlayev:** “Havaların qarlı-şaxtalı keçəcəyi dönəmlərdə də istehlakçılarımız təbii qazın verilməsində hansısa məhdudiyyət yaşamayacaq”

**“Azərsu” ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı da qışa hazır olduqlarını dedi:** “Həm içməli su təchizatı, həm də kanalizasiya sistemlərinin yaxşılaşdırılması ilə bağlı işlərimiz gedir. Bilirsiniz ki, qış aylarında şaxtalı havalarda su təchizatı ilə bağlı müəyyən problemlər ola bilər. Bununla bağlı ”Azərsu" Səhmdar Cəmiyyətinin istismar etdiyi şəbəkələrdə heç bir problem yoxdur. Həm nasosxanalarımız, həm paylayıcı xətlərimizin hamısı bu gün istismardadır və qarlı, soyuq günlərdə də istismarda olacaq. Kanalizasiya şəbəkələrimizdə də mütəmadi olaraq yoxlamalar aparırıq. Yağış barmaqlıqlarının, kanalizasiya quyularının təmizlənməsi, kanalizasiya xətlərinin yuyulması ilə bağlı işlərimiz davam edir. Buna görə də qış aylarında hansısa ciddi bir problem gözləmirik. Qarlı günlərdə bəzən suallar verirlər ki, donmalar olur. Donmalar əsasən həyət evlərində olur. Hansı ki, insanlar tərəfindən primitiv qaydada su xətləri çəkilib. Havalar da soyuq olanda, temperatur sıfırın altına düşəndə donma halları həmin ərazilərdə baş verə bilir".

**“Azəriqaz” İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev dedi ki, qış mövsümünə tam hazırlıq görülüb:** “İlin fəslindən asılı olmayaraq əhali tələbata uyğun olaraq mavi yanacaqla təmin olunur. ”Azəriqaz" İstehsalat Birliyi istehlakçıların qaz təminatının yaxşılaşdırılması, o cümlədən tələbata uyğun, fasiləsiz təbii qazla təmin olunması sahəsində də bir sıra tədbirlər həyata keçirir. “Azəriqaz”ın may ayından etibarən 2016-2017 payız qış mövsümünə hazırlıqla əlaqədar tərtib edilmiş tədbirlər planına uyğun olaraq 2016-cı ilin may-sentyabr aylarında respublika üzrə 17607 qaz kəməri təmir edilmiş və yeni qaz xətləri çəkilmişdir. Çəkilmiş qaz xətləri üzərində 154 ədəd qaz tənzimləyici, 43 siyirtmə quraşdırılıb. O cümlədən də çəkilmiş qaz xətlərindən Bakı Regional Qaz Departamenti tərəfindən payız qış mövsümü ilə əlaqədar 2759 panametr uzunluğunda qaz kəməri çəkilib. İstismara qaz xətləri yenisi ilə əvəz olunub. 65 ədəd qaz tənzimləyicisi , 19 ədəd siyirtmə quraşdırılıb. Bu, Bakı şəhərinə aiddir. Ümumiyyətlə, “Azəriqaz” İstehsalat Birliyi regionlar üzrə qaz təchizatının yaxşılaşdırılması, qəsəbə və kəndlərin qazlaşdırılması, uzun müddət təbii qaz olmayan yaşayış məntəqələrinə təbii qazın verilməsi istiqamətində xeyli işlər görülüb. Cari ilin 9 ayı ərzində 158 yaşayış məntəqəsi tərəfimizdən qazlaşdırılaraq mavi yanacaqla təmin olunub. Bu yaşayış məntəqələrinin qazlaşdırılması üçünsə 7214,6 panaqometr yeni boru xətti çəkilib, 225 kilometr boru xətti isə əsaslı təmir olunub. İstehsalat birliyi hündür mərtəbəli binalara da təbii qazın verilməsi istiqamətində bir sıra işlər aparıb. Bu işlər nəticəsində cari ilin 9 ayı ərzində 275 hündürmərtəbəli binalara qazın verilməsi təmin edilib ki, bu da 8434 mənzili əhatə edir. Qazın satışı ilə məşğul olan bir qurum olaraq təhlükəsizliklə bağlı sənədləri olan bütün çoxmərtəbəli binalara qazın verilməsinə hazırdır. Qəza halları baş verdikdə istehlakçılarımız dərhal 104 və 185 saylı qaynar xəttə müraciət edirlər ki, həmin çağrı mərkəzlərimiz də sutkanın 24 saatı fəaliyyət göstərir. Ümumiyyətlə, “Azəriqaz” İstehsalat Birliyi payız-qış mövsümünə tam hazır olduğu üçün havaların qarlı-şaxtalı keçəcəyi dönəmlərdə də istehlakçılarımızı təbii qazda hansısa məhdudiyyət gözləmir".

❑ **Günel MANAFLI**

# Beynəlxalq Sığorta Şirkəti niyə bağlandı?

## Ekspertlər başlıca səbəb kimi Beynəlxalq Bankın sistemli problemlərini göstərirlər…

**Azərbaycan Beynəlxalq Sığorta Şirkəti fəaliyyətini dayandırır. Bu barədə şirkətin təsisçisi və 100 faiz səhmdarı olan Beynəlxalq Bankdan məlumat verilib. Sığorta şirkətinin fəaliyyətinin dayandırılması ilə bağlı qərar iki gün əvvəl səhmdarların növbədənkənar iclasında qəbul edilib. Bankın İdarə Heyətinin sədr müavini Elmir Həbibullayev bir neçə gün əvvəl jurnalistlərə açıqlamasında bildirib ki, şirkətin bağlanmasına səbəb onun maliyyə göstəricilərinin aşağı olmasıdır. Qeyd edək ki, Azərbaycan Beynəlxalq sığorta şirkəti 32 növ üzrə sığorta xidməti göstərirdi. (Trend)**




Elmir Həbibullayev bildirib ki, səbəb biznesin optimallaşdırılmasıdır: “Biz biznesimizi optimallaşdırmağa çalışırıq. ”Beynəlxalq Sığorta Şirkəti"nin maliyyə göstəriciləri bizi qane etmədiyi üçün biz bu cür qərar qəbul etdik".

**Professor Elşad Məmmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Beynəlxalq Sığorta Şirkətinin fəaliyyətinin dayandırılmasının başlıca səbəbi Beynəlxalq Bankın sistemli problemləri ilə bağlıdır: “Beynəlxalq Bankın ”qüdrətli" dövründə Beynəlxalq Sığorta Şirkəti fəaliyyətini, o cümlədən risk-menecment, marketing, brending və bazarın seqmentləşdirilməsi siyasətini daha çox sığorta bazarının tələblərinə uyğun deyil, inzibati qaydalar əsasında qurmuşdu. Yekunda Beynəlxalq Bankın “qüdrətinin” bitməsi Beynəlxalq Sığorta Şirkətinin də inzibati resurslardan məhrum olması və bazarda lazımsız quruma çevrilməsi ilə nəticələndi. Bu, bir daha bazar iqtisadiyyatı şəraitində menecmentin inzibati resurslar əsasında formalaşdırılmasının nə dərəcədə zərərli olmasını sübut etdi".

**Ekspertin sözlərinə görə, şirkətin faktiki olaraq bağlanmasının sığorta bazarına ciddi mənfi təsirini gözləməyə dəyməz:** “Çünki ölkədə bank sektorunda olduğu kimi, sığorta sistemində də iştirakçı şirkətlərin sayı bazarın tələbatından xeyli dərəcədə çoxdur. Diğər tərəfdən, sığorta sistemində risklər ənənəvi olaraq bank sektoru ilə müqayisəedilməz səviyyədə olur. Fikrimcə, ölkə iqtisadiyyatının inkişaf perspektivləri baxımından bu qərarla bağlı əsas sual və təhlil mövzusu Beynəlxalq Bankla bağlı problemlərin hansı səviyyədə olmasındadır. Dövlət rəsmilərinin bəyanatlarından və bankda həyata keçirilən son idarəetmə qərarlarından belə nəticəyə gəlmək olar ki, bu bankın kiçilməsi məsələsi gündəmdədir. Çünki menecmentindəki ciddi problemlər səbəbindən bu bank fəaliyyətini dövlətin real ifadədə de-fakto subsidiyaları hesabına həyata keçirir. Dövlətin banka maliyyə dəstəyi olmasaydı, bu bank çoxdan müflis olmuşdu. Fikrimcə, bankın problemlərinin dərinliyi və bəlkə də dünya təcrübəsində nonsens təşkil etməsi aidiyyəti dövlət strukturları tərəfindən çıxış yollarının axtarılması ilə bağlı konseptual yanaşmanın müəyyən edilməsi ilə bağlı çətinliklərin olmasının əsas səbəblərindəndir. Lakin məsələnin iqtisadi-təşkilati tərəfi ondan ibarətdir ki, Beynəlxalq Bank kimi sistemformalaşdıran qurumun zərərli aktivlərinin kritik həddi belə keçməsi qətiyyətli addımların atılmasını zəruri edir. Düşünürəm ki, hazırda dövlət strukturları tərəfindən bankın kiçildilməsi və zərərli aktivlərinin azaldılması ilə bağlı gördüyü tədbirlər düzgün istiqamətdə atılmış addımlar kimi qiymətləndirilə bilər. Bununla yanaşı, hesab edirəm ki, Beynəlxalq Bankın zərərli aktivlərinin və öhdəliklərinin səviyyəsinin son dərəcədə çox olması səbəbindən bu bankda optimallaşma və restrukturizasiya ilə bağlı tədbirlər davam edəcək”.

**İqtisadçı alim Fikrət Yusifov isə musavat.com-a qeyd edib ki, Beynəlxalq Sığorta Şirkətinin səhmlərinin 100 faizi Beynəlxalq Banka məxsusdur və onun bağlanmasına dair qərarı da səhmlərin sahibi kimi o qəbul edib:** “Əldə etdiyimiz məlumata görə, şirkətin bağlanmasının əsas səbəbi onun maliyyə durumunun qənaətbəxş olmamasıdır. Hazırda Beynəlxalq Bankın yeni rəhbərliyi bankın sağlamlaşdırılması istiqamətində bir çox addımlar atır. Bu tədbirlər tək bankın verdiyi problemli kreditlərlə bağlı deyil. Burada söhbət bütövlükdə bankın fəaliyyətinin sağlamlaşdırılmasından gedir. Bu addım da həmin sıradan olan addımlardan biri kimi dəyərləndirilməlidir. Sığorta şirkətinin bağlanması ilə bağlı onun müştərilər qarşısındakı öhdəliklərinin də müvafiq qanunvericiliyin tələblərinə uyğun şəkildə həll ediləcəyi şübhəsizdir”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

# Xocasəndə evləri su basıb

## 100-ə yaxın ev su içindədir; əhali çarəsiz durumda

**Binəqədi rayonunun Xocasən qəsəbəsindəki Ruslan Allahverdiyev küçəsinin sakinləri acınacaqlı durumla qarşılaşıblar. Qəsəbə hündür təpələrin əhatəsində yerləşdiyindən sel suları həmin ətrafda yerləşən yaşayış sahələrinə axır, nəticədə böyük göllər əmələ gətirir. Məhəllə dörd tərəfdən təpələrin əhatəsində olduğundan vaxtaşırı yağış suları çökəkliyə doğru axır, evlər su altında qalır.**





Bundan əlavə, ərazidə neft çıxarıldığından yaşayış evlərinin bir addımlığında mazut gölləri əmələ gəlib. Ətrafda bataqlıq və neft iyindən durmaq olmur. Sakinlər təmiz hava belə almağa həsrət qaldıqlarını deyirlər. Bütün bunlara baxmayaraq, aidiyyəti qurumlar bu problemin həllinə çalışmır. Məhəllədə əhali öz vəsaitləri hesabına kanalizasiya sistemi çəksə də, yetərli olmayıb.

**Qəsəbə sakini, II qrup Qarabağ əlili Gəray Ebişov "Yeni Müsavat" qəzetinin əməkdaşına deyib ki, evinə kifayət qədər zərər dəyib:** "Yaşadığımız küçədə suyun ziyan vurmadığı ev qalmayıb. 100-ə yaxın ev kanalizasiya və qrunt suları atında qalıb. Yağış suları təpələrdən axıb, evlərin içərisində göl yaradıb. Otaqların içərisində 30-40 santimetr dərinliyində gölməçə yaranıb.Yağış yağmayanda belə qrunt və mazut sularının axıntısı



daim olur. Camaat motor vasitəsilə suyu xaric ediblər. Hər tərəf su içərisindədir. Uşaqlar məktəbə yol tapıb gedə bilmir. Sel suları o qədər dərin göl yaratmışdı ki, hərəkət edə bilmirdik. Məcbur qalıb, daşlardan yol düzəldib, üstü ilə hərəkət edirik. Evə axan göl suları lazımi sənədlərimizi yararsız hala salıb".

**Qəsəbə sakinləri bu problemlərin kanalizasiya sisteminin nasazlığından yarandığını və bunun heç kimi maraqlandırmadığını deyirlər:** "Sonuncu yağan yağışda sakinlər evlərinə girə bilmirdilər. Sel suları evlərinə dolmuşdu. İki gün öncə burada vəziyyət acınacaqlı idi. Həmin vaxt gəlsəydiniz camaatın necə zülm çəkdiyini gözlərinizlə görərdiniz. Göl suyu o qədər dərin idi ki, arx qazıb kənara yönəldə bilmədik. Onlarla evə zərər dəydi. Camaatın əşyaları, döşəməsi gölməçə içində idi. Bir çox ailə nəmişlik səbəbindən bir müddət qonşusunun evində qalıb. Dəfələrlə aidiyyəti qurumlara müraciət eləmişik. Bu ərazilərdə kanalizasiya sistemi var, ancaq kifayət etmir. Sel suları o qədər çox axır ki, kanalizasiya sistemi daşır. Bu yaxınlarda bələdiyyə və FHN əməkdaşları da gəlib, əraziyə baxış keçirdilər. Heç bir iş görmədilər. Burada o qədər də çətin iş yoxdur. Yol kənarı ilə arx qazıb, borular qoymaq lazımdır ki, axan sular o borular vasitəsilə xaric edilsin. Təəssüf ki, bu işlər görülmədi. Bu qədər insan bu xəstəliyin, rütubətin içində yaşayır".

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**



## Hava şəraiti kəskin dəyişəcək

**Oktyabrın 15-dən 18-i gündüzədək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv, 17-də güclü olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyinin güclənəcəyi gözlənilir.**

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə aşağı enəcək: 17-də gecə 8-10, gündüz 10-12 dərəcə isti təşkil edəcək.

Musavat.com Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən xəbər verir ki, oktyabrın 15-dən ikinci ongünlüyün sonunadək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi, dağlıq və dağətəyi rayonlarda sulu qara, qara keçəcəyi ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə oktyabrın 17-18-də 4-6 dərəcə aşağı enəcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.

## Avtobusda sərnişindaşımaya görə yeni cərimə tətbiq ediləcək

**Azərbaycanda şəhərdaxili (rayondaxili) sərnişin daşımaları yerinə yetirən avtobusda sərnişin müvafiq qaydada ödəniş etmədən getməyə görə cərimə ediləcək.**

"Report"un xəbərinə görə, bununla bağlı Milli Məclisin oktyabrın 14-də keçirilən plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi müzakirəyə çıxarılıb.

Dəyişiklik layihəsinə əsasən, şəhərdaxili (rayondaxili) sərnişin daşımaları yerinə yetirən avtobusda sərnişin müvafiq qaydada ödəniş etmədən getməyə görə 5 manat cərimə ediləcək.

Bundan başqa, müvafiq qaydada ödəniş edilmədən sərnişinin aparılmasına 20 manat cərimə tətbiq ediləcək.

Layihə səsə qoyularaq qəbul edilib.

## Lənkəranda silahlı şəxs tutulub

**Daxili İşlər Nazirliyindən «Trend»ə verilən məlumata görə, Lənkəran Şəhər-Rayon Polis şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini Seyfəddin Muradovdan "Makarov" tipli tapança, 1 ədəd patron darağı və 8 ədəd patron götürülüb.**

## Bank kartlarından pul oğurlayan gənc həbs edildi

**Bakının Səbayel rayonunda 3 nəfərin bankomat kart hesablarından oğurluq edilib. "Report"un məlumatına görə, Bakı şəhər sakinləri Vaqif Həsənov, Mətanət Quliyeva, Cəmilə Quliyevanın bankomat kartının hesabından müxtəlif məbləğdə pul oğurlanıb.**

Hüquq-mühafizə orqanları kart hesablarından oğurluq edən 21 yaşlı Novruz Hüseynovu saxlayıb.

Faktla bağlı araşdırma aparılır.




**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmaq həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya email(kioskum.az@gmail.com)yazmağınız kifayətdir.

**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**

*Telefon: (012) 434-93-01*



**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01; 070-888-91-50**

YENİ MÜSAVAT
N 228 (6549) 15 oktyabr 2016

**Bir neçə gün öncə paytaxtda dini təriqət üzvü olan qadının öz 5 yaşlı oğlunu boğaraq qətlə yetirməsi xəbəri ölkə mətbuatında ildırım sürəti ilə yayıldı. Daha sonra mətbuatda hadisəni törətmiş şəxsin "Yahova şahidləri" sektasının üzvü olduğu, sosial şəbəkələrdə isə onun satanistlərə xidmət etdiyi barədə iddialar irəli sürüldü. Bu iddia hələlik tam təsdiqlənməsə də, bizə dünyadakı ən təhlükəli dini sektalar barədə bir arayış hazırlamağı mütləq etdi.**

# Ən qorxulu dini sektalar barədə bilmədiklərimiz

## Biri özünü yuxuda öldürməyi əmr edir, o biri ailəsini atmağı…

**"No-po-Nana"** - yapon neobuddist sekta tərcümədə "işığın öyrənilməsi" anlamına gəlir. 1987-ci ildə əsası qoyulub. Sektanın yaradıcıları tərəfindən belə bir şayiə yaradılmışdı ki, guya onların müəllimi Xogen Fukunaqa magik xüsusiyyətlərə malikdir və insanın eyni zamanda keçmişini, gələcəyini onun ayaqlarından oxuya bilir.

Sektanın ən uğurlu dönəmlərində onun üzvlərinin sayı 30 min nəfərə çatmışdı. Amma sektanın rəhbərliyi dələduzluqla məşğul idi. Belə ki, onlar bəzi insanlara xərçəng kimi ölümcül xəstəliklər diaqnozu qoyur və onları təşkil etdikləri xüsusi "təmizləmə tədbirlərinə" dəvət edirdilər. Belə tədbirlərin hər seansı isə 900 dollar idi.

Bu məsələ böyüyəndən və sektanın rəhbərliyi dələduzluq maddəsi ilə məhkəmə qarşısına çıxandan sonra ona 1 milyon dollara yaxın cərimə cəzası müəyyənləşdirildi.

**Raelçilər.** Bu sekta ötən əsrin 70-ci illərində Klod Varilov tərəfindən yaradılıb. Onun yaradıcısını, keçmiş idman şərhçisi olan Rael kimi daha çox tanıyırdılar. Bu şəxs 1973-cü ilin 13 dekabrında bəyan etdi ki, Fransanın mərkəzindəki sönmüş bir vulkanda yadplanetlilərlə qarşılaşıb və onlardan biri özünü Allah adlandırıb.

Elohim adlı yadplanetli ona deyib ki, Yer üzərindəki həyat gen mühəndisləri tərəfindən yaradılıb. Bundan başqa, klonlaşdırmada da onların xidməti var. Sektanın rəhbəri eyni zamanda seksual azadlığı təbliğ edirdi ki, bu da özü ilə ciddi əxlaqsızlıqları da gətirirdi.

Rusiyada populyarlaşmış **"Xristosun Kilsəsi"** sektasının əsas prinsipi isə o idi ki, həqiqi xristian mütləq hər şeyi çatdırmalı, yer üzündə hər gün daha çox çiçəklənməli və dünyanın xilası üçün çalışmalıdır. Sekta üzvləri informasiya vakuumunda olurlar. Belə ki, onlar televiziya, radio və mətbuatdan tamamən özlərini təcrid edirlər. Onların böyük əksəriyyəti valideynlərini də atır. Belə ki, sekta daxilində belə bir sistem formalaşıb ki, onların düşüncəsini qəbul etməyən insanlar şeytanın əlində bir silahdır. Bu sektanın toplantıları daha çox stadionlarda keçirilir və formatına görə ekstrasenslərin yığıncağını xatırladır. Sektaya üzv olanın daha sonra ənənəvi üsullarla müalicəsi mümkün deyil. Çünki bir çox hallarda ondan qopmaq istəyən insanları öldürürlər.

**"Xalqlar Məbədi"** - Havay adalarında yerləşən bu sekta dünyanın ən təhlükəli dini sektası sayılır. 1978-ci ildə burada baş verən hadisə isə bütün dünyanı şoka saldı. Şahidlər deyir ki, sektanın rəhbəri Cim Consun çıxışlarına toplaşan adamlar mitinq iştirakçılarını xatırladırdılar. Onun bir sözünü iki etməyə kimsə cəsarət etmirdi. 1978-ci il noyabrın 18-də Cons çıxış edərkən Amerika bayrağına işarə edərək demişdi: **"Fanatik, irqçi, imperialist millətin nümayəndələri, vaxt gələcək, hesablaşacağıq".** Həmin gün 1000-dən çox ABŞ vətəndaşı (sekta üzvü) kütləvi intihar etmişdi.



Ümumilikdə isə dünya üzrə isə 3200-dən çox saentologiya kilsəsi, missiyaları, qrupları və sosial hərəkatı fəaliyyət göstərir. 154-dən çox ölkədə bu hərəkatın tərəfdarları var. Bu nəzəriyyənin yaradıcısı amerikalı fantastik əsərlər yazıçısı Lafayet Ronald Habbarddır. Gəncliyində dənizçi və polis olmuş Habbard sonradan universitetə daxil olub, fizika və astronomiyanı öyrənib. Daha sonra jurnalist və romançı kimi tanınıb, 130-dan çox əsər yazıb. 1970-80-ci illərdə saentologiya elmi üzrə məruzələrə başlayıb. Saentologiya tərəfdarları 1954-cü ildə dini icma - kilsə yaradıblar, yəni Ron Habbardın taleyi bir qədər də azərbaycanlı filosof Asif Əfəndiyevinkinə bənzəyib.

Bu kilsənin tərəfdarları Tanrını sonsuzluq kimi qəbul edir, Onun Yüksək Varlıq və Yaradan kimi də adlandırıldığını bildirirlər. Onların fikrincə, insan əbədidir və tarix boyunca forma dəyişdirərək mövcud olur. MDB məkanında saentologiya hərəkatı ilk dəfə 1984-cü ildə peyda olub, onda sovet rejiminin qadağalarına baxmayaraq, Leninqrada, yəni indiki Sankt-Peterburqda bir qrup adam saentologiya təlimini öyrənməyə başlayıb. 1980-ci illərin sonlarında oxşar qrup Moskvada da yaranıb. 1990-cı illərin əvvəllərində bu qruplar birləşərək, Rusiyada saentologiya kilsəsi təsis ediblər. Kilsə bütün MDB məkanında rus dilində saentologiya ədəbiyyatı yaymaqla məşğuldur. Lakin milli dillərdə də kitablar nəşr olunur. Habbardın əsərlərinin tərcümə olunduğu 50-dən çox dil arasında Azərbaycan dilinin də adı var. Bakının çeşidli yerlərində - kitab pasajında, keçmiş Kitab evinin yanında bukinistlərdən saentologiya barədə istənilən kitab tapmaq olar. Saentologiya həvəskarları əsasən tələbə-gəncliyi təmsil edirlər. Saentologiyanın geniş yayılmasına baxmayaraq tərəfdarı azdır, dünya üzrə toplam sayları 8 milyondan çox deyil. Lakin buna baxmayaraq, zaman-zaman dünyanın bir çox ölkələrində artıq saentoloqlara qarşı radikal addımlar atılır və kilsələri bağlanılır.

Almaniya elitasını saentologiyanın məhz "ruh təmizləmə" prosedurları və cəlbedici vədləri qorxudur. Bu ölkənin "Koubrqer taqeblat" qəzeti saentologiyanın iradəcə zəif, təsir altına tez düşən insanları tora saldığını bildirir: **"Təəccüblü deyil ki, xüsusilə gənc insanlar təşkilatın qurbanına çevrilirlər. Psixoloji təsir üsulları ilə insanları asılı, manipulyasiyalara uyan hala salırlar. Şübhəli üsullar istifadə edən bu yalançı din bizim demokratik cəmiyyətin əsaslarından çox uzaqdır".**

Almaniyanın ailə, gənclik, qadınlar və yaşlılar üzrə naziri Ursula fon Lyayen ehtimal edir ki, saentologiya "çox vaxt insanları psixoloji və maliyyə asılılığına salır".

**Menson sektası:** Menson Yer üzünün bu günə qədər görmüş olduğu ən böyük manyak, ağılsızdır və özünü peyğəmbər elan edib. O, ağ və qara dərili insanlar arasında müharibə elan edib. Bəyanatlarında isə bildirib ki, ancaq bu iki qütbdəki insanlar arasında müharibə bitsə, dünya tamamən təmiz olacaq və bu, ona dünya üzərindəki hökmranlığa gedən yolu açacaq.

Çarlz Menson 1969-cu ildə, bir neçə qətldə ittiham olunub. Bu qətllərin sırasında polyak aktrisa Şeron Teytin həyat yoldaşı, rejissor Roman Polanski də olub. Məhkəmənin hökmünə görə, o, qaz kamerasına salınmalı idi. 1977-ci ildə Kaliforniya məhkəməsi ona ölüm hökmü elan edib. Ölüm hökmünü daha sonra ömürlük həbs cəzası ilə əvəz ediblər.

**Heaven's Gate** sektası isə 1975-ci ildə ABŞ-da, Marşal Eppluayt və Bonni Nettlz tərəfindən yaradılıb. 1977-ci ildə Marşal öz sektasının 39 üzvünü intihara sövq edib. Buna səbəb kimi isə Yer kürəsinin Heyla Bolp kometası ilə toqquşması ehtimalı olub. O, təriqət üzvlərini inandırıb ki, onlar Yer kürəsini tərk edərək, kosmik gəmidə səyahətə gedəcəklər. Sekta üzvləri əllərinə əlcək, başlarına papaq taxıb gəzirdilər ki, hətta təsadüfən də olsa bir-birlərinə toxunmasınlar, toxunanda şəhvani hissləri oyanmasın. Bundan başqa, onlar bir-birilə məktub vasitəsilə ünsiyyət qururdular. Ailəni isə birdəfəlik unutmaq lazım idi. Hər kəs sekta daxilində "izləyici partnyor"a sahib idi və öz növbəsində də kimisə izləyirdi. İnternet dünyanı ağuşuna alan illərdə isə bu sektanın xüsusi saytı yaradıldı. Dini ayinlərdən öncə onlar limon şirəsi içir. Bununla da ritual olaraq bədənlərini təmizləyirdilər. Onlar eyni zamanda düşünürdülər ki, genişmiqyaslı intiharların da internetin populyarlığı ilə bağlıdır. Sektanın bir çox üzvləri veb dizayner olaraq çalışırdılar.

26 mart 1997-ci ildə Kaliforniya yaxınlığında sektanın 39 üzvünün cəsədi tapıldı. Onların bədəni pidnq və meyvəli jele ilə örtülmüşdü. Onlar intihardan öncə çoxlu araq içib, daha sonra isə başlarına torba keçirərək, yuxuda ölməyi qət etmişdilər. Bu 39 nəfərin hər biri eyni cür geyinmişdi - qara köynək, qara şalvar və qara idman ayaqqabısı.

**Aum Sinrike dini sektası** - bu sektanı da Yaponiyada yaradıblar. Bu sektanın fəlsəfəsi buddizmin əsasında yaranıb. Aum Sinrike Yaponiyada bir neçə terror aktı hazırlayıb və həyata keçirib. Bundan başqa, Tokio metrosunda partlayış törədib. Sonuncunun nəticəsində 12 nəfər dünyasını dəyişib. Məhkəmə onunla bağlı 17-yə qədər cinayət işi açıb və 2004-cü ildə onun haqında ölüm hökmü verilib.

❑ **Sevinc TELMANQIZI**

# Bakıda heyvanların parçaladığı şəxs kriminal aləmin üzvü imiş





**Bakıda heyvanlar tərəfindən parçalanmış meyiti tapılan şəxslə bağlı maraqlı faktlar məlum olub. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, meyiti tapılan şəxsin kriminal aləmin üzvü olması, xristian dininə mənsubluğu və məhkumluq həyatı yaşadığı ehtimal edilir.**

Bu iddiaları meyitin üzərindəki döymələr də təsdiqləyir. APA-nın əldə etdiyi fotolardan aydın görünür ki, onun bədənində xaç, Müqəddəs Məryəm, İsanın, oğru dünyasının simvollarından sayılan 8 guşəli ulduz və digər işarələrin döymələri, ayağında isə "05 uqolovniy kodeks" döyməsi var.

Hüquq-mühafizə orqanlarından həmçinin bildirilib ki, heyvanlar meyiti parçaladığı üçün onun üzü tanınmaz hala düşüb. Bu səbəbdən də onun kimliyi müəyyənləşdirmək hələlik mümkün olmayıb. Lakin onun kriminal aləmlə bağlı olması və məhkumluq həyatı yaşaması ehtimalı nəzərə alınaraq Penitensiar Xidmətin bütün cəzaçəkmə müəssisələrinə sorğu göndərilib.

Hazırda meyiti tapılan şəxsin kimliyinin və ölümünün səbəblərinin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Qeyd edək ki, ötən gün paytaxtın Qaradağ rayonu ərazisində sakinlər yol kənarında insan meyitinin itlər tərəfindən parçalandığının şahidi olublar. Dərhal əraziyə polis əməkdaşları çağırılıb.

Hadisə yerinə baxış keçirilərkən meyitin qollarının və ayaqlarının heyvanlar tərəfindən parçalandığı məlum olub.